1 oktyabr 2021 №74 (1851) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycanla Gürcüstan arasında mədəniyyət sahəsində əməkdaşlıq proqramı imzalanıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb. Prezident bildirib ki, ölkələrimiz arasında siyasi əlaqələrin gücləndirilməsi nəinki təkcə bizim xalqlarımız üçün, eyni zamanda bütün region üçün önəmlidir.

Sentyabrın 29-da Bakıda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun və Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin sədrliyi ilə Gürcüstan Respublikası ilə Azərbaycan Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclası keçirilib.

İki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıqla bağlı sənədlər, o cümlədən "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Gürcüstanın Mədəniyyət, İdman və Gənclər Nazirliyi arasında 2021-2024-cü illər üçün mədəniyyət sahəsində əməkdaşlıq haqqında Proqram" imzalanıb.

səh. 2

## 2021-ci ildə regionun ən böyük kitab yarmarkası Bakıda keçiriləcək

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 6-10 oktyabr 2021-ci il tarixində Bakı Ekspo Mərkəzində VII Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası keçiriləcək.




Kitab bayramı dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə ithaf olunur.

Sərginin əsas məqsədi cəmiyyətdə kitaba olan marağı artırmaq və mütaliə mədəniyyətini təbliğ etmək, oxucuları nəşriyyat işi sahəsində olan rəqəmsal yeniliklərlə tanış etmək, ölkəmizdə kitab sənayesi sektorunun və müasir ədəbi proseslərin inkişafını dəstəkləməkdir.

Sərgi-yarmarkada 43 xarici, 99 yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli şirkət, müəssisə və təşkilat iştirak edəcək. İştirakçılar üçün 6 kvadratmetrə qədər ekspozisiya sahəsi və lazımi avadanlıqlar Mədəniyyət Nazirliyi tərəfindən ödənişsiz olaraq təmin edilir.

davamı səh. 2-də

## Çexiya şirkətləri azad olunmuş ərazilərin bərpasında iştirakda maraqlıdır

Bakıda səfərdə olan Çex Respublikasının xarici işlər naziri Yakub Kulhanek Azərbaycanın onun ölkəsi üçün vacib tərəfdaş ölkə olduğunu qeyd edib.

Yakub Kulhanek həmkarı Ceyhun Bayramovla görüşdə bölgədə sülh və təhlükəsizliyin təmin edilməsinin vacibliyini vurğulayıb və Çexiya şirkətlərinin bərpa və quruculuq prosesində iştirak etmək marağını ifadə edib.

səh. 2



## "Azərbaycan ansamblı Ceraş səmasına işıq saçdı"

İordaniyanın qədim Ceraş şəhərində 35-ci Beynəlxalq Mədəniyyət və İncəsənət Festivalı keçirilib. Festivalda iştirak edən Azərbaycan Dövlət Rəqs Ansamblı Ceraş şəhərinin mərkəzi meydanında rəngarəng proqram təqdim edib.

səh. 8

# Özbəkistanda "Azərbaycan kinosu günləri"

### Ölkəmiz Daşkənd Beynəlxalq Film Festivalında xüsusi proqramla təmsil olunur

Özbəkistanın paytaxtı Daşkənddə "İpək Yolunun incisi" Beynəlxalq Film Festivalı keçirilir. Əlli ildən çox tarixə malik Daşkənd festivalı, keçmiş sovet məkanında nüfuzlu kino müsabiqələrindən olmaqla yanaşı, ümumilikdə cənub-şərqi Asiya regionunda da tanınıb. 1968-ci ildə SSRİ Dövlət Kino Komitəsinin himayəsi ilə əsası qoyulan festival Sovet İttifaqının süqutundan sonra uzun müddət keçirilməyib. Özbəkistan Prezidentinin təşəbbüsü ilə dirçəldilən və adı yenilənən kinofestival indiyədək görünməmiş bir miqyasda təşkil olunub.




Sayca 13-cü Daşkənd Beynəlxalq Film Festivalına 40-dək ölkədən qonaqlar, kino ulduzları qatılıb. Sentyabrın 28-də Əlişir Nəvai adına Kino Evində təntənəli açılışı keçirilən və 3 oktyabradək davam edəcək festivalda Azərbaycan kinosu da təmsil olunur. Böyük kino bayramı kimi tərtib olunan festivalın proqramında ümumilikdə 150-dək filmin nümayişi nəzərdə tutulub, o cümlədən Daşkənd və digər şəhərlərdə müxtəlif ölkələrin kino günləri keçirilir. Bu sırada "Azərbaycan kinosu günləri" də var.

Sentyabrın 29-da festival çərçivəsində Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) "Azərbaycan kinosu günləri"nin açılış mərasimi keçirilib.

Mərasimə Azərbaycan nümayəndə heyətinin üzvləri – Mədəniyyət Nazirliyi Kinematoqrafiya şöbəsinin müdiri, kinorejissor Rüfət Həsənov, Xalq artisti, kinorejissor Vaqif Mustafayev, "Azərbaycanfilm" Kinostudiyasının direktoru Fariz Əhmədov, Bakı Media Mərkəzinin icraçı direktoru Orman Əliyev və digərləri qatılıb.

Ölkəmizin Özbəkistandakı səfiri Hüseyn Quliyev iştirakçıları salamlayaraq, Azərbaycan kinosunun zəngin yol keçdiyini bildirib. Azərbaycan və Özbəkistan kinematoqrafçılarının əməkdaşlığından danışan səfir vurğulayıb ki, görkəmli rejissor Tofiq Tağızadə vaxtilə "Görüş" adlı film çəkib və bu ekran əsəri Azərbaycan-özbək dostluğunun bariz nümunəsidir.

Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin icraçı direktoru Erkin Nuriddinov Daşkənd festivalında Azərbaycandan böyük nümayəndə heyətinin iştirakından məmnunluğunu bildirib, bu sahədə əlaqələrin daha da inkişaf etdirilməsini arzulayıb.

Mədəniyyət Nazirliyinin şöbə müdiri Rüfət Həsənov bildirib ki, zaman-zaman Azərbaycan rejissorları və artistləri Özbəkistanda, özbək kinematoqrafçıları isə Azərbaycanda birgə film çəkilişlərində iştirak ediblər. Məşhur "Nəsimi" filminin bəzi kadrları Özbəkistanın Xivə şəhərində lentə alınıb.

davamı səh. 8-də

## Nizami Gəncəvi Avropa Şurasında

Dahi Azərbaycan mütəfəkkir və şairi Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyi ilə əlaqədar Strasburqda Avropa Şurasının mənzil-qərargahında sərgi açılıb. Sərgi Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə elan edilmiş "Nizami Gəncəvi İli" çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan Respublikasının Avropa Şurası yanında Daimi Nümayəndəliyi tərəfindən təşkil edilib.




Sərgidə böyük mütəfəkkir və şairin Heydər Əliyev Fondu tərəfindən nəşr edilmiş fransız və ingilis dillərində kitabları, eləcə də Nizaminin "Xəmsə"sinə daxil olan poemaların motivləri əsasında çəkilmiş əsrarəngiz miniatürlər nümayiş olunur.

Xüsusi guşədə Nizami Gəncəvinin zəngin yaradıcılığından nümunələr və onun bəşər ədəbiyyatına misilsiz töhfəsi haqqında məlumatlar diqqətə çatdırılır.

Sərginin Avropa Şurası Parlament Assambleyasının (AŞPA) payız sessiyası dövrünə təsadüf etməsi Strasburqda yerləşən diplomatik korpus və katiblik əməkdaşları ilə yanaşı, avropalı parlamentarilərin və digər qonaqların sərgi ilə tanış olmasına imkan verir.

davamı səh. 2-də

## Teatrlar, kinoteatrlar, kitabxanalar, konsert zalları...

### 1 oktyabr tarixindən açılır

Xəbər verildiyi kimi, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, 2021-ci il oktyabrın 1-dən Azərbaycanda xüsusi karantin rejimi çərçivəsində növbəti yumşalmalar olacaq.

Qərara əsasən, istirahət və əyləncə məkanlarının (klublar daxil olmaqla), həmçinin uşaq əyləncə məkanlarının (bulvar və parkların ərazisində olanlar daxil olmaqla) fəaliyyəti, ümumi tutumunun 50 faizindən çox olmamaq şərtilə mədəniyyət obyektlərinin (konsert zalları daxil olmaqla), eləcə də konfrans zallarının, kinoteatrların, teatrların fəaliyyəti, iri ticarət mərkəzlərinin nəzdindəki uşaq və digər əyləncə mərkəzlərinin, eləcə də ümumi tutumunun 50 faizindən çox olmamaqla kinoteatrların fəaliyyəti bərpa edilir.

Fəaliyyəti bərpa edilən iş və xidmət sahələri saat 00:00-dək xidmət göstərir və həmin iş və xidmət sahələrinin qapalı məkanlarında göstərilən xidmətlərdən yaşı 18-dən yuxarı olan şəxslər yalnız COVİD-19 pasportu, yaxud COVİD-19 infeksiyası əleyhinə peyvəndə əks göstəriş sertifikatına sahib olduqları halda istifadə edə bilərlər.

Həmçinin sözügedən iş və xidmət sahələrinin işçi heyətinin 80 faizinin COVİD-19 pasportuna və ya COVİD-19-a qarşı immunitet sertifikatına malik olması şərtdir.

İş və xidmət sahələri üzrə fəaliyyət göstərən məkanlarda COVİD-19 pasportunun verifikasiyası prosesinin təşkili və baş verəcək pozuntu hallarına görə məkan sahibi birbaşa cavabdehlik daşıyır.

Beləliklə, 2020-ci ilin mart ayında pandemiya səbəbindən qapıları tamaşaçı üzünə bağlanan teatrlar, kino nümayişi məkanları və konsert zalları 1 oktyabr tarixindən açılır.

Yeri gəlmişkən, 1 oktyabr Beynəlxalq Musiqi Günüdür. UNESCO tərəfindən 1975-ci il oktyabrın 1-də təsis olunan gün ənənəvi olaraq konsert proqramları ilə qeyd edilir.

mövzunun davamı səh. 3-də

## Hilal Baydarovun "Durna çırağı"nın dünya premyerası Tokioda olacaq

30 oktyabr – 8 noyabr tarixlərində keçiriləcək Tokio Beynəlxalq Film Festivalının əsas müsabiqə bölümündə azərbaycanlı rejissor Hilal Baydarovun "Durna çırağı" bədii filminin dünya premyerası olacaq.

Bu barədə festival təşkilatçılarının mətbuat konfransında məlumat verilib. Azərbaycan filmi festivalın əsas mükafatı olan "Tokyo Grand Prix" uğrunda müsabiqəyə qatılacaq. Bildirilib ki, festivalın müsabiqə hissəsinə daxil edilən 15 filmdən 10-nu ilk dəfə nümayiş olunacaq. Bu filmlər 113 ölkədən 1533 film arasından seçilib.



Festivalın münsiflər heyətinin sədri məşhur aktrisa İzabel Yupperdir.

davamı səh. 8-də

## "Xatirə Kitabı: 44 gün – tarixi Zəfər"

Milli Kitabxanada Respublika Xatirə Kitabı Redaksiyasının yeni nəşri – "Xatirə Kitabı: 44 gün – tarixi Zəfər" kitabının təqdimat mərasimi keçirilib.

Tədbirdə bildirilib ki, kitab II Qarabağ müharibəsi şəhidlərimizin adını daim yaşatmaq məqsədilə hazırlanıb. Kitab üç cilddə nəzərdə tutulub. İşıq üzü görən birinci cildə 1200-ə yaxın şəhidimiz haqqında məlumatlar daxil edilib.

səh. 3

## "Mədəniyyət kəndlərdə" layihəsi davam edir



səh. 4

## Gənclərə xaricdə nüfuzlu ali məktəblərdə təhsil imkanları yaratmaq məqsədilə yeni Dövlət Proqramı hazırlanacaq

səh. 2

## Vyanada bəstəkarlarımızın əsərləri səslənib



səh. 8

# Gənclərin xaricdə ali təhsili ilə bağlı yeni Dövlət Proqramı hazırlanacaq

Prezident İlham Əliyev sentyabrın 30-da "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" sərəncam imzalayıb.

Sərəncam sürətli inkişaf üçün zəruri olan müasir bacarıqlara malik insan kapitalının yaradılması, bu çərçivədə istedadlı gənclərin xarici ölkələrdə təhsil almasına dövlət dəstəyinin davam etdirilməsi məqsədilə imzalanıb.

Sərəncamda qeyd olunur ki, əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş xaricdə təhsil ənənəsi Azərbaycan müstəqillik qazandıqdan sonra da uğurla davam etdirilib. "Qara qızıl"ın insan kapitalına çevrilməsi strategiyası təhsilə əhatənin və ona əlçatanlığın artmasına, bu çərçivədə gənclərin qabaqcıl xarici təhsilə cəlbinin müxtəlif proqramlarla dəstəklənməsinə mühüm imkanlar yaradıb.

Gənclərin xarici təhsilə cəlbi ölkənin sosial-iqtisadi həyatına, eləcə də insan kapitalının milli sərvətdə payının böyüməsinə, təhsilin məzmun və keyfiyyətinin yaxşılaşmasına, Azərbaycan Respublikası ali təhsil müəssisələrinin akademik potensialının güclənməsinə əhəmiyyətli töhfə verib.

Postpandemiya və yeni strateji dövrün çağırışları, həmçinin milli inkişaf məqsədlərimiz nəzərə alınmaqla, ölkənin rəqabət və inkişaf sahəsində sürətlə irəliləməsi üçün yüksək intellekt cəmiyyətin əsas güc mənbəyinə çevrilməli, yenilikçi təbəqənin iqtisadi fəallıq və idarəçilikdə rolu möhkəmlənməlidir. Bu məqsədlə Azərbaycan gənclərinin ehtiyac duyulan istiqamətlər üzrə qabaqcıl xarici ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində təhsil alması davamlı olmalıdır.

Sərəncamda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramının layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

# "Azərbaycan" Nəşriyyatının baş direktoru vəzifəsindən azad edilib

Prezident İlham Əliyev sentyabrın 30-da Ağabəy Məmməd oğlu Əsgərovun "Azərbaycan" Nəşriyyatının baş direktoru vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.

Ağabəy Əsgərov dövlət başçısının müvafiq sərəncamı ilə 2005-ci ildə bu vəzifəyə təyin edilmişdi.

# Milli Məclisin sədri Qazaxıstan Parlamentini Xocalı soyqırımını tanımağa çağırıb

Qazaxıstana rəsmi səfər edən Milli Məclisin sədri Sahibə Qafarova Qazaxıstan Parlamentinin yuxarı palatası – Senatın sədri Maulen Aşımbayev və Qazaxıstan Parlamenti Məclisinin sədri Nurlan Niqmatulinlə görüşlərində bu ölkənin qanunverici orqanını Xocalı soyqırımını tanımağa çağırıb.

Milli Məclisin sədri həmkarlarına qarşıdan 30-cu ildönümü gələn Xocalı soyqırımı barədə ətraflı məlumat verib və diqqətə çatdırıb ki, dünyanın bir sıra ölkələrinin parlamentləri bu faciəni soyqırımı kimi tanıyıb. Spiker deyib ki, Qazaxıstan Parlamentinin də insanlığa qarşı böyük cinayət olan bu faciəyə öz münasibətini bildirməsi yaxşı olardı.

Görüşlərdə Milli Məclisin sədri, həmçinin 44 günlük Vətən müharibəsində Azərbaycanın Zəfər qazanaraq torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalına son qoyduğunu deyib, azad edilmiş Azərbaycan ərazilərində işğal dövründə Ermənistan tərəfindən tamamilə dağıdılmış şəhərlərin, kəndlərin bərpasından və həyata keçirilən genişmiqyaslı infrastruktur layihələrindən bəhs edib.

# Çexiya şirkətləri azad olunmuş ərazilərin bərpasında iştirakda maraqlıdır

Sentyabrın 30-da xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə işgüzar səfərdə olan Çex Respublikasının xarici işlər naziri Yakub Kulhanek ilə görüşüb.

Nazir Ceyhun Bayramov ölkəmizin Çex Respublikası ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini bildirib. Yakub Kulhanek öz növbəsində Azərbaycanın Çexiya üçün vacib tərəfdaş ölkə olduğunu qeyd edib. O, səfər çərçivəsində biznes forumun açılışında iştirakını məmnunluqla qeyd edərək, hər iki tərəfdən çox sayda şirkətin iştirak etdiyi bu tədbirin ölkələrimiz arasında iqtisadi münasibətlərin inkişafı üçün önəmli olduğunu bildirib.

Görüşdə ölkələrimiz arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın fəaliyyəti, parlament ölçüsü üzrə əlaqələrin genişləndirilməsi, habelə humanitar, turizm sahələrində münasibətlərin daha da inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparılıb. Həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Ceyhun Bayramov həmkarına bölgədə mövcud olan postmünaqişə mərhələsi və ən son vəziyyət, o cümlədən Azərbaycan tərəfinin Ermənistan işğalından azad etdiyi ərazilərində həyata keçirdiyi bərpa, quruculuq, reinteqrasiya işləri barədə məlumat verib.

Yakub Kulhanek bölgədə sülh və təhlükəsizliyin təmin edilməsinin vacibliyini vurğulayıb və Çexiya şirkətlərinin bərpa və quruculuq prosesində iştirak etmək marağını ifadə edib.

# "Nizami Gəncəvinin əsərləri təsviri sənətdə" mövzusunda elmi konfrans

Sentyabrın 30-da Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə "Nizami Gəncəvinin əsərləri təsviri sənətdə" respublika elmi konfransı keçirilib.

Onlayn formatda, "Zoom" tətbiqi vasitəsilə keçirilən konfransı açıq elan edən Azərbaycan Dövlət Rəsm Qalereyasının direktoru Qalib Qasımov "Nizami Gəncəvi İli"nin elan edilməsinin əhəmiyyətindən, dahi şəxsiyyətin dünya mədəniyyəti və incəsənətinə təsirindən, onun ideya və fəlsəfəsinin elmi tədqiqat nöqteyi-nəzərdən vacibliyindən danışıb.

Konfransda Hefford Xalq Universitetinin Xarici dillər kafedrasının dosenti Sevil Fuks "Almaniya və İsveçrə təsviri incəsənətində Nizami Gəncəvinin əsərləri" mövzusunda mühazirə ilə çıxış edib. Rəssam İsgəndər Məmmədov Nizami Gəncəvinin əsərlərinə çəkdiyi illüstrasiyaları iştirakçılarla bölüşüb.

Daha sonra mövzu ilə bağlı BDU-nun dissertantı Firuzə Sadıqova, BDU-nun doktorantı Aynur Səfərli, Azərbaycan Dövlət Rəsm Qalereyasının kiçik elmi işçisi Dürdanə Qurbanovanın məruzə tezisləri təqdim edilib.

# Azərbaycanla Gürcüstan arasında əlaqələrin gücləndirilməsi bütün region üçün önəmlidir

## İki ölkənin müvafiq nazirlikləri arasında "2021-2024-cü illər üçün mədəniyyət sahəsində əməkdaşlıq haqqında Proqram" imzalanıb

Əlbəttə ki, ölkələrimiz arasında siyasi əlaqələrin gücləndirilməsi nəinki təkcə bizim xalqlarımız üçün, eyni zamanda, bütün region üçün önəmlidir. Mən bəzi məlumatlara nəzər saldım və gördüm ki, iqtisadi inkişaf sahəsində bizdə yaxşı irəliləyiş var, ticarət dövriyyəsi artır. Bu gün hökumətlərarası komissiyanın iclası olacaq. Mən əminəm ki, iclasda bir çox mühüm sahələr əhatə olunacaq, görülmüş işlərə nəzər salınacaq və gələcək addımlarımız planlaşdırılacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sözləri sentyabrın 29-da ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşü zamanı deyib.



Gürcüstan Baş nazirinin bu il artıq ikinci dəfə Azərbaycana səfər etdiyini, həmçinin ikitərəfli münasibətlərin mühüm məsələlərinin müzakirəsini apardığımız bir neçə telefon danışığının olduğunu qeyd edən Prezident İlham Əliyev bildirib ki, iki qardaş ölkə arasında siyasi dialoq həmişə fəal olub və indi də fəal olmaqda davam edir: "Biz xarici siyasətlə bağlı məsələlərdə sıx əməkdaşlıq edirik, xüsusilə indi yeni çağırış və imkanlar olan regionumuzda".

Azərbaycan Prezidenti daha sonra deyib: "Ölkənizdə çox müsbət investisiya mühiti, sizə bir çox sosial və iqtisadi məsələləri həll etməyə imkan verən iqtisadi islahatlar bizi çox məmnun edir. Həmçinin hökumətinizi Gürcüstandakı bütün sahələrdəki inkişafla bağlı əldə etdiyiniz böyük uğur münasibətilə təbrik etmək istəyirəm. Biz dost və qardaş olaraq bu inkişaf proseslərini görməyə çox şadıq, yeni səylərinizdə şəxsən sizə və hökumətinizə uğurlar arzulayırıq.

Əlbəttə ki, biz bu gün neft və qaz, elektrik enerjisi, nəqliyyat sahələri kimi əməkdaşlığımızın ənənəvi sahələri haqqında da danışacağıq. Bunlar artıq həyata keçirilmiş layihələrdir və indi biz bu layihələrin faydasını görürük. Bu, bizim ölkələrimiz arasında əməkdaşlığın çox xüsusi formatını yaradıb. Çünki bu layihələr təkcə bizim ölkələrimiz üçün deyil, Avrasiya regionunda bir çox ölkələr üçün əhəmiyyət kəsb edir. Əminəm ki, bugünkü səfər əməkdaşlığımıza yeni təkan verəcək".

Bakıya növbəti gəlişindən məmnuniyyət hissi keçirdiyini vurğulayan İrakli Qaribaşvili bildirib ki, bu, mükəmməl olan ikitərəfli əlaqələrimiz barədə danışmaq üçün böyük imkandır. "Qeyd etdiyiniz kimi, biz dost, qardaşıq. Bu gün biz, həmçinin iqtisadi komissiyanın 8-ci iclasını keçirəcəyik və inkişafda olan ikitərəfli əlaqələrimizi müzakirə edəcəyik. Gürcüstan sözsüz ki, siyasi, iqtisadi, mədəni və digər sahələrdə ikitərəfli əlaqələrimizin güclənməsində maraqlıdır. Biz, həmçinin regionda sülh və sabitliyin olmasında maraqlıyıq. Bu, güclü iqtisadi inkişafın təməli olacaq", – deyə o əlavə edib.

***

Qeyd edək ki, sentyabrın 29-da Bakıda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun və Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin sədrliyi ilə Azərbaycan Respublikası ilə Gürcüstan arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclası keçirilib. Mədəniyyət naziri Anar Kərimov komissiyanın iclasında iştirak edib.

Azərbaycan Gürcüstanla mədəniyyət sahəsində əməkdaşlığı gücləndirmək niyyətindədir: "Məlum olduğu kimi, Azərbaycanın mədəniyyət naziri bu yaxınlarda Gürcüstanda səfərdə olmuşdur və səfər çərçivəsində həm sizinlə, həm də ölkənizin digər rəsmi şəxsləri ilə bir sıra səmərəli görüşlər keçirmişdir. Bu görüşlərdə hər iki ölkənin mədəni irsinin qorunması məsələsi diqqət mərkəzində olmuşdur. Biz, həmçinin insanlar arasında təmaslara da böyük əhəmiyyət veririk. Azərbaycanda yaşayan gürcülərin və Gürcüstanda yaşayan azərbaycanlıların əlaqələrimizin inkişafında çox böyük rolu var. Azərbaycan və Gürcüstan çoxmillətli, çoxkonfessiyalı ölkələrdir və bu, bizim böyük sərvətimizdir".

İclasın sonunda Əli Əsədov və İrakli Qaribaşvili Azərbaycan Respublikası ilə Gürcüstan arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclasının Protokolunu imzalayıblar. İki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığa bağlı sənədlər, o cümlədən "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Gürcüstanın Mədəniyyət, İdman və Gənclər Nazirliyi arasında 2021-2024-cü illər üçün mədəniyyət sahəsində əməkdaşlıq haqqında Proqram" imzalanıb.



İclasda gündəlikdə duran məsələlərə dair məruzələr dinlənilib, geniş fikir mübadiləsi aparılıb. Həmçinin iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən informasiya texnologiyaları, kənd təsərrüfatı, mədəniyyət, təhsil və turizm sahələrində ikitərəfli əməkdaşlığın perspektivləri geniş müzakirə edilib.

Baş nazir Əli Əsədov çıxışında da diqqətə çatdırıb ki, mədəni və humanitar sahə Azərbaycan-Gürcüstan əməkdaşlığının əsas istiqamətlərindən biri olaraq qalır.

# Kitablarımız Moskva yarmarkasında maraq doğurub



Xəbər verdiyimiz kimi, ölkəmiz 24-27 sentyabr 2021-ci il tarixində Rusiya paytaxtındakı Ekspo Mərkəzində keçirilən 34-cü Moskva Beynəlxalq Kitab Yarmarkasında təmsil olunub. Tədbirdə Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli, əməkdaşlar İslam Hüseynov və Kamran Musayev iştirak ediblər.

Yarmarkada Azərbaycan mədəniyyəti, ədəbiyyatı, incəsənəti, tarixi ilə bağlı Milli Kitabxananın hədiyyə fondunda saxlanılan və ölkənin qabaqcıl nəşriyyatlarından əldə olunan Azərbaycan, rus və ingilis dillərində 200 adda kitablar sərgilənib.

Azərbaycan stendinin ziyarətçilərinə tariximiz, Qarabağ həqiqətləri, Vətən müharibəsində şanlı Qələbəmiz, mədəniyyətimiz haqqında ətraflı məlumat verilib və bəzi kitablar hədiyyə edilib. Eyni zamanda ziyarətçilərə 2021-ci ilin ölkəmizdə "Nizami Gəncəvi İli" elan edilməsi haqqında məlumat verilib. Gənc oxucular yarmarkada Nizami haqqında nəşrlərə böyük maraq göstəriblər.

Rusiya Milli Kitabxanasının, Elmlər Akademiyasının bəzi institutlarının, bir sıra ali təhsil müəssisələrinin və digər dövlət qurumlarının nümayəndələri Azərbaycan stendində sərgilənən kitablarla yaxından tanış olublar.

Xalq yazıçısı Anar və Azərbaycanın Rusiya Federasiyasındakı Səfirliyinin nümayəndəsi Nigar Axundova stendimizi ziyarət ediblər.

# 2021-ci ildə regionun ən böyük kitab yarmarkası Bakıda keçiriləcək

əvvəli səh. 1-də

Beş gün ərzində müxtəlif formatda 139 tədbir nəzərdə tutulub. O cümlədən uşaqlar üçün Nizami Gəncəvinin əsərlərinin motivləri əsasında kukla tamaşaları, "nağıl saatları", uşaq yazarları ilə görüşlər, inklüzivlik və digər aktual mövzular üzrə kitab təqdimatları, imza günləri, kitab sənayesi sektorunun subyektləri arasında əməkdaşlıq platformaları və musiqi proqramları təşkil ediləcək.

Azərbaycanın xalq yazıçıları və şairləri, tanınmış gənc yazarlar və məşhur xarici yazarlar sərgidə iştirak edəcəklər. Çingiz Abdullayev, Gülseren Budayıcıoğlu, Elxan Elatlı, Sinan Yağmur, Toğrul Mehti Niyazi, Ercan Kesel və digər tanınmış yazıçı və məşhur şəxslər sərgidə günün "fəxri qonağı" olacaqlar.

İştirakçılar tərəfindən sərgidə satışa çıxarılacaq bütün kitablara böyük endirimlər nəzərdə tutulur. Ziyarətçilər üçün sərgiyə "Koroğlu" metro stansiyasından hər yarım saatdan bir, "Elmlər Akademiyası" stansiyasının yanından isə hər saatdan bir avtobuslar hərəkət edəcək.

Sərgi-yarmarkaya təşkilati dəstəyi "Caspian Event Organisers" şirkəti həyata keçirir. Sponsor "BP" şirkəti, baş TV tərəfdaşı Azərbaycan İctimai Televiziyasıdır.

# Nizami Gəncəvi Avropa Şurasında

## AŞPA-nın mənzil-qərargahında dahi Azərbaycan şairinə həsr edilmiş sərgi

əvvəli səh. 1-də

Sərginin açılışında ölkəmizin Avropa Şurası yanında daimi nümayəndəsi, səfir Fəxrəddin İsmayılov və AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin üzvü, millət vəkili, akademik Rafael Hüseynov çıxış ediblər.

Rafael Hüseynov Nizami Gəncəvi əsərlərinə həsr edilmiş sərginin böyük əhəmiyyət daşıdığını vurğulayaraq bildirib ki, XII əsrdə Nizaminin təbliğ etdiyi və aşıladığı dəyərlər məhz bu gün Avropa Şurasının təbliğ etdiyi dəyərlərdir.

"Azərbaycanın böyük mütəfəkkiri və şairi Nizami Gəncəvi 8 əsr əvvəl yazırdı: …Yüz il sonra sorsan bəs o hardadır? Hər beyti səslənər: Burda, burdadır!

Əsrlər keçməsinə baxmayaraq, Nizami Gəncəvi yenə də burdadır, Azərbaycanın hər qarışında, dünyanın bir çox ölkələrindədir.




Bu gün Nizami Gəncəvi Strasburqda Avropa evindədir. Bu, çox sevindirici haldır. Çünki Avropa Şurası dünya üçün vacib olan ümumi dəyərləri qoruyur və təbliğ edir. Avropanın təbliğ etdiyi dəyərləri 8 əsr əvvəl böyük mütəfəkkir Nizami Gəncəvi əsərləri vasitəsilə təbliğ edirdi. Nizaminin müxtəlif dillərə tərcümə edilən əsərləri indi həmin sözləri bütün dünyaya deyir", – deyə Rafael Hüseynov əlavə edib.

Akademik bildirib ki, Avropa Şurasında müxtəlif ölkələrdən gələn deputatlar, eləcə də qurumun işçiləri, bu binaya daxil olan hər kəs sərgini maraqla seyr edir. Nizami körpüsü vasitəsilə Azərbaycana məhəbbət artır. Nizami Gəncəvini təkcə məhəbbət, ədəbiyyatla əlaqələndirmək düz deyil, bu həm də siyasi hadisədir. Nizami dünyada böyük dəyərləri təbliğ edir.

Qeyd edək ki, sərgidə mütəfəkkir şairin büstü də nümayiş olunur. Sərgi oktyabrın 8-nə qədər AŞPA-nın mənzil-qərargahında ictimaiyyətə açıq olacaq.

# "Xatirə Kitabı: 44 gün – tarixi Zəfər"

## Milli Kitabxanada təqdimat mərasimi



Sentyabrın 29-da Milli Kitabxanada Respublika Xatirə Kitabı Redaksiyasının yeni nəşri –"Xatirə Kitabı: 44 gün – tarixi Zəfər" kitabının təqdimat mərasimi keçirilib.

Tədbirdə əvvəlcə Vətən müharibəsi şəhidlərinin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Kitabxananın direktoru, professor Kərim Tahirov bildirib ki, heç bir zəfər, azadlıq qurbansız başa gəlmir. 44 günlük Vətən savaşımızda çoxlu şəhidlər verdik: "Tarixi torpaqlarımız onların canı, qanı bahasına erməni işğalından azad olunub. Nə qədər ki, Azərbaycan dövləti, xalqı var, biz onları heç vaxt unutmayacağıq. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu tərəfindən 44 günlük müharibə Azərbaycanın necə mərd, döyüşkən xalq olduğunu dünyaya bir daha sübut etdi".

Direktor onu da qeyd edib ki, Vətən müharibəsində böyük Zəfərin ildönümü ərəfəsində "Xatirə Kitabı: 44 gün – tarixi Zəfər" kitabının nəşri təqdirəlayiq addımdır. O, vurğulayıb ki, Respublika Xatirə Kitabı Redaksiyasının yaradılması bilavasitə ulu öndər Heydər Əliyevin uzaqgörənliyi ilə bağlıdır. Onun qərarı ilə yaradılmış redaksiya indiyədək çoxsaylı nəşrləri ictimaiyyətə çatdırıb. K.Tahirov bu kitabın nəşrə hazırlanmasında zəhməti olan bütün əməkdaşlara təşəkkürünü bildirib.

Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru Nəzakət Məmmədova deyib ki, xalqımız 27 sentyabrda tarixi bir gün yaşadı. 44 günlük müharibə zamanı öz canını qurban verən şəhidlərimizin Anım Gününü qeyd etdik. Bildirib ki, Respublika Xatirə Kitabı Redaksiyası ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə İkinci Dünya müharibəsində, hərbi münaqişələrdə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olanların xatirəsini əbədiləşdirmək məqsədilə yaradılıb: "II Qarabağ müharibəsi şəhidlərimizin adını daim yaşatmaq məqsədilə bu kitabı hazırladıq. Kitab üç cilddə nəzərdə tutulub. İşıq üzü görən birinci cildə 1200-ə yaxın şəhidimiz haqqında məlumatlar daxil edilib".

# "MDB kitabxanalarının üç onillik tərəfdaşlığı"

## Düşənbədə beynəlxalq konfrans

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası 29-30 sentyabr tarixlərində Tacikistanın paytaxtı Düşənbədə keçirilən "MDB kitabxanalarının üç onillik tərəfdaşlığı: istinadlar və inkişaf strategiyaları" adlı beynəlxalq konfransda təmsil olunub.



Konfrans Düşənbə şəhərinə "MDB-nin Mədəniyyət Paytaxtı – 2021" statusu verilməsi və MDB-nin yaranmasının 30 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində gerçəkləşib.

Milli Kitabxananın beynəlxalq əlaqələr üzrə direktor müavini Ədibə İsmayılova konfransda iştirak edib. O, "Azərbaycan Milli Kitabxanasının beynəlxalq əlaqələri MDB ölkələri kontekstində" adlı məruzəsində MDB-yə üzv ölkələrin kitabxanaları ilə əməkdaşlıqdan bəhs edib. Bildirib ki, Azərbaycan Milli Kitabxanasının beynəlxalq əlaqələrinin genişlənməsində beynəlxalq kitab mübadiləsi böyük əhəmiyyət kəsb edir. Direktor müavini Milli Kitabxananın dünyanın 70 ölkəsinin kitabxanası ilə beynəlxalq kitab mübadiləsi həyata keçirdiyini diqqətə çatdırıb.

Ə.İsmayılova Milli Kitabxananın Ehtiyat mübadilə fonduna məxsus "Salam, Azərbaycan!" və "Əbdürrəhman Cami. Seçilmiş əsərləri" kitablarını Tacikistan Milli Kitabxanasına bağışlayıb.

İki sessiyadan ibarət konfransda Tacikistan Milli Kitabxanasının direktoru Jumaxon Xoloviç, Belarus Milli Kitabxanasının baş direktoru Oksana Knijnikova, Rusiya Milli Kitabxanasının Beynəlxalq fəaliyyətlər şöbəsinin müdiri Kseniya Borisovna və başqalarının çıxışları dinlənilib.

Konfrans çərçivəsində bir sıra əməkdaşlıq müqavilələri imzalanıb.

# Kino nümayişi müəssisələrinin rəhbərləri ilə görüş keçirilib

Xəbər verildiyi kimi, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, 1 oktyabr 2021-ci il tarixdən ölkəmizdə teatr, kinoteatr və konsert müəssisələrinin fəaliyyəti bərpa olunacaq.

Bu münasibətlə mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev sentyabrın 28-də kino nümayişi müəssisələrinin rəhbərləri ilə görüş keçirib.

Görüşdə Nizami Kino Mərkəzinin direktoru Leyli Mirzəyeva, "CinemaPlus" kinoteatrlar şəbəkəsi Müşahidə şurasının sədri Zaur Darabzadə, baş icraçı direktor Murat Camcı, "Park Cinema" kinoteatrlar şəbəkəsinin icraçı direktoru Elnur Allahverdiyev və marketinq direktoru Musa Axundov iştirak edib.

Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırıqlarına əsasən Mədəniyyət Nazirliyində aparılan islahatlar barədə məlumat verən Elnur Əliyev kinematoqrafiya sahəsinə də xüsusi diqqət ayrıldığını, bu baxımdan kino nümayişinin prioritet sahələrdən olduğunu vurğulayıb.

Görüşdə kino nümayişi qurumlarının rəhbərləri mövcud vəziyyət və gələcək planlar haqqında ətraflı məlumat veriblər. 2020-ci ilin martından fəaliyyətini dayandıran kinoteatrlarda pandemiyanın mənfi təsiri, problemlər və perspektivlər müzakirə olunub, müəssisələrin ölkədə tətbiq olunan karantin rejimi qaydalarına əməl etməklə əhaliyə yüksək səviyyədə xidmət göstərməsinin vacibliyi diqqətə çatdırılıb.

Sonda mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev nazirliyin bu istiqamətdə kino nümayişi müəssisələrinə dəstək olacağını və birgə əməkdaşlığın inkişafı ilə bağlı lazımi tədbirlər görəcəyini bildirib.

# ATMU-da Yunus Əmrə İnstitutunun Bakı nümayəndəsi ilə görüş

Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) Türkiyənin Yunus Əmrə İnstitutunun Bakı nümayəndəliyinin rəhbəri Selçuk Karakılıçla görüş keçirilib.

ATMU-dan bildirilib ki, görüşdə rektor İlham Mədətov təhsil ocağının inkişaf strategiyası, beynəlxalq əlaqələri və turizm istiqamətli təşkilatlarla əməkdaşlıq münasibətləri barədə qonağa məlumat verib. Rektor ölkələrimiz arasında qardaşlıq və dostluq əlaqələrinin yüksələn xətlə inkişaf etməsindən məmnunluğunu ifadə edib.

Görüşdə ATMU və Türkiyənin təhsil və turizm sahəsində uyğun təşkilatlarla əlaqələrinin daha da gücləndirilməsi nəzərdən keçirilib. Hər iki ölkədə turizmin müasir vəziyyəti, inkişaf istiqamətləri və mövcud problemlərə münasibət bildirilib.

Türkiyənin Yunus Əmrə Vəqfinə bağlı qurum olaraq 2009-cu ildə fəaliyyətə başlayan Yunus Əmrə İnstitutunun müxtəlif ölkələrdə 60-a yaxın nümayəndəliyi – mədəniyyət mərkəzi var. Bakıdakı nümayəndəlik Türkiyənin Azərbaycandakı Mədəniyyət Mərkəzi kimi fəaliyyət göstərir.

# Qobustan qoruğunda şəhidlərin xatirəsi yad olunub

Qobustan Milli Tarix-Bədii Qoruğunda Vətən müharibəsi şəhidlərinin anım mərasimi keçirilib. Ölkəmizin ərazi bütövlüyünün təmin olunması yolunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Qobustan qoruğunun direktoru Vüqar İsayev bir il əvvəl işğalçı Ermənistan ordusunun növbəti təxribatına cavab olaraq müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin əmri ilə Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatına başladığını və 44 gün davam edən Vətən müharibəsində qazanılan şanlı Qələbədən danışıb. O, Prezident İlham Əliyevin 27 sentyabr – Vətən müharibəsinin başladığı günün Azərbaycan Respublikasında Anım Günü kimi qeyd olunması ilə bağlı sərəncamının Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış şəhidlərin ruhlarına, onların ailələrinə, doğmalarına yüksək ehtiramın göstəricisi olduğunu qeyd edib.

Vüqar İsayev şəhidlik zirvəsinə ucalan igidlərimizin xatirəsinin hər bir Azərbaycan vətəndaşının qəlbində əbədi yaşayacağını, daim dərin hörmət və ehtiramla yad ediləcəyini bildirib.

Sonda İkinci Qarabağ müharibəsindən bəhs edən videoçarx nümayiş olunub.

# Musiqi məktəbi binasının təmirdən sonra açılışı

Sentyabrın 29-da Sabirabad Regional Mədəniyyət İdarəsi Saatlı şəhər Bülbül adına Musiqi məktəbi binasının təmirdən sonra açılışı olub və yeni tədris ilinin başlanması ilə əlaqədar tədbir təşkil edilib.

Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov və Sabirabad Regional Mədəniyyət İdarəsinin rəisi Fərid Qurbanzadə məktəbin müəllim və şagird heyətinə uğurlar arzulayıblar.

Sonra qonaqlar sinif otaqlarında və fənn kabinetlərində yaradılan şəraitlə tanış olub, şagirdlərin ifasında musiqi nömrələri dinləyiblər.



Vətən müharibəsində Saatlı rayonundan şəhid olan qəhrəmanların məktəbdə yaradılmış guşəsi qarşısında şagirdlər kompozisiya ilə çıxış ediblər.

# Açın pərdələri, açın pərdələri!...

## Tamaşaçıları bundan artıq intizarda saxlamayaq



Teatrlar açılır... Bu xəbərin sevinci ilə başqalarını da sevindirmək üçün ilyarım gözlədik. Nazirlər Kabineti yanında Operativ Qərargah müvafiq qaydalara riayət etmək, o cümlədən tamaşa zalının ümumi tutumunun 50 faizindən çox olmamaq şərtilə, oktyabrın 1-dən etibarən teatrların tamaşaçıları qəbul etməsinə icazə verdi...

Biz də təfərrüata getmədən ölkə teatrlarında yaradıcı işin təşkili və tamaşa plan-proqramları ilə maraqlandıq.

İlk olaraq Akademik Opera və Balet Teatrına müraciət etdik. Teatrın mətbuat xidmətindən bildirdilər ki, yaradıcılıq işlərinə başlanılıb və artıq oktyabrın 9-na iki tamaşanın nümayişi nəzərdə tutulub. Bunlar N.Rimski-Korsakovun "Şəhrizad" (saat 19:00) və A.Borodinin "Qıpçaq rəqsləri" (saat 20:00) birpərdəli baletləridir. Onu da qeyd edək ki, bu, "Qıpçaq rəqsləri"nin premyera nümayişidir.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı isə tamaşaların göstərilməsinə oktyabrın 15-dən sonra başlayacaq. Teatrın mətbuat xidmətindən öyrəndik ki, ilk olaraq cari repertuardakı (ötən mövsümdən qalan) tamaşaların ("Ölülər", "Şah Qacar", "Cəhənnəm sakinləri", "Qətibə İnanc", "Ah, bu uzun sevda yolu", "Almaz", "Sinif yoldaşları", "Bir, iki – bizimki!") məşqlərinə başlanacaq. İntensiv məşqlərə ehtiyac var və təxminən 15-20 gün vaxt aparacaq. Oktyabrın ikinci yarısından, teatrın yaradıcı və texniki işləri qaydasına düşənədək, yəni noyabrın əvvəlinə qədər tamaşalar şənbə və bazar günləri təqdim olunacaq. Noyabr ayından etibarən isə ənənəvi repertuar və qrafik üzrə iş davam edəcək.

112-ci mövsümünü yaşayan Akademik Musiqili Teatra gəlincə, yaradıcı heyət oktyabr ayının 1-dən tamaşalar üzərində məşqlərə və bərpa işlərinə başlayacaq. Bütün bu proseslərdən sonra nümayişi nəzərdə tutulan tamaşalar haqqında sənət ocağının sosial şəbəkə hesablarında ətraflı məlumat veriləcək.

Dövlət Gənc Tamaşaçılar Teatrı da işə cari repertuar tamaşalarının bərpası ilə başlayacaq. Oktyabrın 15-dən tamaşalar həftənin cümə və şənbə günləri göstəriləcək. Onu da qeyd edək ki, teatrın tamaşa salonunda, tavan hissəsindəki təmir-bərpa işləri ilə əlaqədar olaraq nümayişlər binanın kiçik səhnəsində, eləcə də bir müddət Dövlət Kukla və Mahnı teatrlarında nümayiş olunacaq.

Yuğ Dövlət Teatrında da açılış həyəcanı yaşanır. Yaradıcı heyət oktyabrın 1-dən məşqlərə start verəcək. Teatr rəhbərliyinin qərarına əsasən, repertuardakı 8 tamaşanın yenidən bərpası nəzərdə tutulub. İlk növbədə, pandemiyadan öncə hazırlanan, amma qapanma səbəbindən premyerası baş tutmayan "Kloun BizZ" tamaşasının (M.Vişnekin "Qoca kloun tələb olunur" pyesi əsasında, rejissor – Mikayıl Mikayılov) nümayişi planlaşdırılır. Mövsümün sonuna qədər yeni tamaşanın hazırlanması da nəzərdə tutulur.

Bu il 90-cı – yubiley mövsümünü yaşayan Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı isə artıq oktyabrın 1-də ilk tamaşa ilə teatrsevərlərin qarşısına çıxacaq. Bu, teatrın repertuarındakı ən uzunömürlü nümunələrdən olan "Cırtdan"dır. Tamaşa 2 seansda (12:00, 14:00) göstəriləcək. İlk tamaşa Vətən müharibəsi şəhidləri və qazilərinin övladları üçün təmənnasız göstəriləcək. Oktyabrın 2-dən isə həftənin müvafiq günləri (cümə, şənbə, bazar) əksəriyyəti üç seans (üçüncü seans rus dilində) olmaqla repertuar tamaşaları nümayiş olunacaq. Teatrda yubiley karnaval-tamaşası və iki yeni səhnə əsəri üzərində işə də başlanılıb.

Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında yaradıcı fəaliyyətə gəlincə, qeyd edək ki, teatrın binası bir müddətdir ki, əsaslı təmirə dayanıb.

Şuşa Dövlət Musiqili Dram Teatrında məşqlərə oktyabrın 4-dən başlanılacaq. İlk tamaşa isə pandemiya səbəbindən premyerası təxirə düşən "Dovşanın ad günü" (uşaqlar üçün) olacaq.

Bakı Uşaq və Gənclər Teatrı oktyabr ayından tamaşalarını bərpa etməyi planlaşdırır. Uşaqlar və böyüklər üçün tamaşalar paralel bərpa olunacaq. Teatr mövsümü isə 8 Noyabr – Zəfər Günündə açacaq.

Sumqayıt Dövlət Dram Teatrı da yaradıcı işə başlayır. İlk olaraq gənc yazıçı Ülviyyə Heydərovanın "Uşaqlıq" və "Pələng" monotamaşalarının səhnə həlli tamamlanacaq. Bundan başqa, Əbdürrəhim bəy Haqverdiyevin "Kimdir müqəssir?" əsəri yeni quruluşda səhnələşdiriləcək. "Göyçək Fatma" nağıl-tamaşası da bərpa edilərək balacaların ixtiyarına veriləcək.

Gəncə Dövlət Kukla Teatrı tamaşaçıları qarşısına pandemiyadan öncə hazırladıqları yeni tamaşalarla çıxacaq. "Xeyir və Şər", "Quyruqsuz ulağın sərgüzəştləri", "Bizim bağın gözəli" və "Bremen musiqiçiləri" adlı hər dörd tamaşa premyerasını da etmiş olacaq.

Ağdam Dövlət Dram Teatrı da "4.4 Qısa Tamaşalar Festivalı"na hazırlaşır. Kollektiv paytaxtda teatrsevərlər qarşısına pandemiyadan əvvəl səhnələşdirilmiş "Günahsızlar" tamaşası ilə çıxacaq. Bundan başqa, teatr ilin sonunadək daha iki yeni səhnə işini hazırlamağı planlaşdırır.

Mingəçevir Dövlət Dram Teatrı da pərdələrini açmağa hazırlaşır. Teatrda Mir Cəlal Paşayevin üç hekayəsinin motivləri əsasında lirik-poetik müharibə dramı üzərində iş aparılır. "Leyla" adlı tamaşanın nümayişi 18-24 oktyabr tarixində olacaq. Teatrda yarımçıq qalan səhnə işlərinin də məşqləri davam etdiriləcək.

Qusar Dövlət Ləzgi Dram Teatrı oktyabrın 1-də Abdulla Qurbaninin "Çingiz dastan"ı əsəri əsasında hazırlanan eyniadlı tamaşa ilə teatrsevərlərin görüşünə gələcək. Yaradıcı heyət Mədəniyyət Nazirliyi və "Teatro.az" sənət portalının birgə layihəsi olan "4.4 Qısa Tamaşalar Festivalı"na da hazırlaşır. Festivalda Ramiz Duyğunun "Xarıbülbül" tamaşası təqdim olunacaq.

Füzuli Dövlət Dram Teatrı fəaliyyətinə repertuar tamaşası ilə başlayacaq. Akif Həsənoğlunun "Yaddaş" adlı bu səhnə nümunəsi şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Teatr rəhbərliyi oktyabr və noyabr ayları üçün repertuarda olan hərbi-vətənpərvər mövzulu tamaşaların hamısını bərpa etmək niyyətindədir.

Şəki Dövlət Dram Teatrı əsas diqqəti yeni əsərlərin tamaşaya qoyulmasına yönəldib. İlin sonuna qədər İtaliya dramaturqu Karlo Qoldoninin "Məzəli hadisə" və çex yazıçısı Karel Çapekin "Ana" əsərləri tamaşaya qoyulacaq. Müharibə mövzusundakı ən məşhur əsərlərdən olan "Ana"ya teatrın baş rejissoru Mirbala Səlimli quruluş verəcək.

Qazax Dövlət Dram Teatrı da qapılarını tamaşaçılarının üzünə yeni səhnə əsəri ilə açmaq istəyir. 2021-ci ilin axırına kimi qırğız yazıçısı Mar Baycıyevin "Duel" (rejissor – Allahverdi Musayev) və ingilis yazıçısı Con Qolsuorsunun "Birincilər və sonuncular" (rejissor – Musa Eyyubov) əsərləri təhvil veriləcək. Məşqlərə isə oktyabrın 5-dən başlanacaq.

Lənkəran Dövlət Dram Teatrında iki yeni tamaşa artıq səhnə məşqi mərhələsindədir. Bunlar "Varlı ev" və "Ləpələrin nağılı" tamaşalarıdır. Yaradıcı heyət "4.4 Qısa Tamaşalar Festivalı"na da hazırlaşır. Lənkəran teatrı da Karel Çapekin "Ana" faciəsinə müraciət edib. Əsərə teatrın baş rejissoru, Əməkdar incəsənət xadimi Oruc Qurbanov quruluş verəcək. Teatrın karantindən sonra öz səhnəsində tamaşası isə "Vəfalı Səriyyə" (20-30 oktyabr) olacaq.

**HƏMİDƏ**

# "Pələng" Türkiyəyə gedir

Mədəniyyət Nazirliyinin dəstəyi ilə yazıçı-dramaturq Ülviyyə Heydərovanın "Pələng" monopyesi oktyabrın 7-17 oktyabr tarixində Türkiyənin Diyarbəkir şəhərində keçiriləcək "II Solo-Fest – Keçmişdən bu günə hekayə ənənəsi" Beynəlxalq Teatr Festivalında ölkəmizi təmsil edəcək.

Tamaşanın quruluşçu rejissor və plastik həlli aktrisa-rejissor Səbinə Məmmədzadəyə məxsusdur. Pələng rolunun ifaçısı Gənc Tamaşaçılar Teatrının aktrisası Zümrüd Quliyevadır.

№74 (1851)
1 oktyabr 2021
www.medeniyyet.az

# "Mədəniyyət kəndlərdə" layihəsi Cəlilabadda davam edir



Xəbər verdiyimiz kimi, Masallı Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə "Mədəniyyət kəndlərdə" layihəsi həyata keçirilir. Layihənin növbəti ünvanı Cəlilabad rayonunun Alar kəndi olub.

Tədbirdə çıxış edən regional idarənin rəisi Bəxtiyar Qılıncov layihənin məqsədi və bu çərçivədə görüləcək işlərdən danışıb. O, layihədə iştirak edən yaradıcı gənclərə uğurlar arzulayıb, tədbirin təşkilində əməyi olanlara təşəkkürünü bildirib.

Daha sonra tədbirin bədii hissəsinə başlanılıb. "Alar" folklor ansamblının üzvləri vətənpərvərlik və şəhidlik məqamını tərənnüm edən bayatılar söyləyib, gənc mədəniyyət könüllüləri ədəbi-bədii kompozisiya təqdim ediblər.

Bununla yanaşı, Alar kəndindən şəhid ailələrinin gənc üzvləri, müharibə iştirakçıları və məktəblilər tərəfindən musiqilər ifa edilib, rəsm və digər əl işləri təqdim olunub. Muzey və digər mədəniyyət müəssisələri isə qədim əşyalardan tərtib olunmuş sərgi nümayiş etdiriblər.

Sonda layihənin tədbirlərində fəal iştirak edən bir qrup gəncə regional idarənin təşəkkürnaməsi təqdim edilib.

# "Biz tarixi yaşadırıq"



Xaçmaz Regional Mədəniyyət İdarəsi Xaçmaz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin 40 illik yubileyi münasibətilə "Biz tarixi yaşadırıq" mövzusunda konfrans keçirilib.

Muzeyin direktoru Pakizə Mehdiyeva çıxış edərək müəssisənin fəaliyyəti haqqında ətraflı məlumat verib. Bildirilib ki, muzey 1981-ci ildə sovet Azərbaycanına rəhbərlik edən Heydər Əliyevin iştirakı ilə açılıb.

Regional idarənin rəisi Vüsal Hüseynov muzeyin kollektivini yubiley münasibətilə təbrik edib, uğurlar arzulayıb. Muzeyin yaradıcılarından olan tarixçi Vilayət Əsgərov çıxışında ilk illərdə ekspozisiyanın və fondun formalaşması haqqında söz açıb.

Filologiya üzrə fəlsəfə doktoru, tanınmış şairə, ədəbiyyatşünas Firuzə Məmmədli muzeyin fəaliyyətini yüksək qiymətləndirib, kollektivə öz kitablarını hədiyyə edib.

Daha sonra muzeyin fəaliyyətinə həsr olunan "Biz tarixi yaşadırıq" adlı videoçarx nümayiş etdirilib.

Muzeyin kollektivinə Xaçmaz Regional Mədəniyyət İdarəsinin fəxri fərmanı və hədiyyəsi təqdim olunub. Sonda konsert proqramı təqdim edilib.

# Mədəniyyət müəssisələrində müxtəlif səpkili tədbirlər



Sabirabad Regional Mədəniyyət İdarəsinin tabeliyindəki Uşaq musiqi məktəbləri üzrə 2020/2021-ci tədris ilini bitirərək orta ixtisas və ali məktəblərin musiqi ixtisasına qəbul olunan məzunlarla görüş keçirilib. Görüşdə regional idarənin rəisi Fərid Qurbanzadə çıxış edərək məzunlara yeni nailiyyətlər diləyib. Saatlı şəhər Bülbül adına Uşaq musiqi məktəbi binasının təmirdən sonra açılışı olub. Tədbirdə Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov və Sabirabad Regional Mədəniyyət İdarəsinin rəisi Fərid Qurbanzadə çıxış edərək yeni tədris ilində məktəbin müəllim və şagird heyətinə uğurlar arzulayıblar. Daha sonra qonaqlar məktəbdə yaradılan şəraitlə, həmçinin tədris prosesi ilə tanış olublar. Şagirdlərin ifasında müxtəlif musiqi nümunələri səsləndirilib.

Ağstafa Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Qazax, Ağstafa və Tovuz rayonlarında fəaliyyət göstərən Uşaq musiqi məktəblərini cari ildə bitirmiş və ölkənin müxtəlif ali və orta ixtisas təhsili müəssisələrinə musiqi ixtisasları üzrə qəbul olmuş məzunları ilə görüş keçirilib. İdarənin rəisi Elbəy Əli məzunları təbrik edib, tələbəlik həyatında onlara müvəffəqiyyətlər diləyib. Qazax rayon E.Hüseynov adına Mərkəzi Kitabxananın əməkdaşları fiziki qüsurlu və sağlamlıq imkanları məhdud insanların informasiya tələbatının ödənilməsi, asudə vaxtlarının səmərəli təşkili ilə əlaqədar "Taleyinə acı qismət yazılmışlara qayğı borcumuzdur" adlı səyyar kitabxana xidməti göstəriblər.

Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı idarənin əhatə etdiyi Füzuli şəhər 3 nömrəli Uşaq musiqi məktəbinin və Xocavənd rayon Tuğ kənd musiqi məktəbinin fəaliyyəti ilə tanış olub.

Şəki Regional Mədəniyyət İdarəsi Şəki şəhər Heydər Əliyev Mərkəzində görkəmli şair və dövlət xadimi Molla Pənah Vaqifə (1717-1797) həsr olunmuş tədbir keçirilib. Şəki MKS-nin əməkdaşları və şəhər 10 saylı tam orta məktəbin müəllimlərinin də iştirak etdiyi tədbirin bədii hissəsində şairin şeirləri, C.Cahangirovun şairin "Durnalar" şeirinə bəstələdiyi mahnı səsləndirilib. Şəki Dövlət Dram Teatrının gənc aktyorlarının hazırladığı S.Vurğunun "Vaqif" mənzum pyesindən səhnəcik təqdim olunub. Sonda Vaqifin yaradıcılığı və xalqımızın düşmən işğalından azad olunmuş Şuşaya qayıdışını əks etdirən film nümayiş etdirilib.

Şəki Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Qax rayon MKS-nin Uşaq şöbəsinin təşkilatçılığı ilə Nizami Gəncəvinin 880 illiyi münasibətilə "nağıl saatı" keçirilib. Dahi mütəfəkkirin "Xeyir və Şər", "Şah və xidmətçi", "Hind gözəlinin hekayəti", "Türküstan gözəlinin hekayəti" rəvayətləri təqdim edilib.



Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağcabədi Rayon Tarix-Diyarşünaslıq Muzeyində Azərbaycan Yazıçılar Birliyi (AYB) tərəfindən hazırlanan "Qarabağ dastanı, otuz ilin həsrəti – 44 günün Zəfəri" kitabının təqdimatı olub. Tədbirdə Ağcabədi Regional Mədəniyyət İdarəsinin rəisi Qalib Həsənov, Ağcabədi rayon Heydər Əliyev Mərkəzinin direktoru Məhsəti Musa, Dövlət Pedaqoji Universitetinin müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Tahir Kərimli, kitabın redaktoru və ön söz müəllifi Rəşad Məcid və başqaları çıxış ediblər. Tariximizin bu şanlı səhifəsinin təbliğində yeni nəşrin əhəmiyyəti vurğulanıb.



İsmayıllı Regional Mədəniyyət İdarəsi Qəbələ Dövlət Rəsm Qalereyasında "Nizami Gəncəvi - 880" adlı sərgi təşkil edilib. Sərgidə qalereyanın fondunda saxlanılan dahi şairin portretləri ilə yanaşı, həvəskar rəssamların əl işləri və dekorativ sənət nümunələri də nümayiş olunub.

Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Mədəniyyət Mərkəzində rayon ərazisində çıxan müalicəvi əhəmiyyətli "İstisu" mineral suyu haqqında lentə alınmış eyniadlı sənədli filmin təqdimat mərasimi keçirilib. "Masal production" və "Nur" videostudiyasının birgə əməkdaşlığı ilə ərsəyə gətirilən ekran işində mineral suyun kimyəvi tərkibi ilə bağlı aparılmış elmi tədqiqatların tarixindən və sahə üzrə araşdırmalara rəhbərlik etmiş alimlərin xidmətlərindən və s. bəhs olunur. Filmin ideya və ssenari müəllifi "Masal production"un rəhbəri Cəfər Cəfərov, quruluş və təsvir rejissoru Elsevər Əliyev, montaj rejissoru Faiq Mirzə, dron operatoru isə Vadim Mirzəyevdir.

Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov Gəncə şəhər MKS-də fəaliyyət göstərən "Amerika guşəsi"ndə ingilis dili dərsləri üzrə imtahanların keçirilməsi üçün Gəncəyə gələn səfirliyin nümayəndələri Geoff Anisman, Agne Kaufman və Aydan Əsgərova ilə görüşüb. Samux rayon Mədəniyyət Mərkəzində Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan olunması ilə bağlı məktəblilər arasında rəsm müsabiqəsi keçirilib. Münsiflərin qərarına əsasən, Mətanət Hüseynova I, Fatimə Abdulsəlimova II, Aysu Yolçuyeva III yerlərə layiq görülüblər.

# Şanlı Zəfəri canı və qanı ilə qazananlar



Şəmkirdə gerçəkləşən anım tədbirində rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev, Şəmkir Regional Mədəniyyət İdarəsinin rəisi Zöhrab Adıgözəlov, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər. Mərasimdə şəhid övladlarının təqdimatında ədəbi-bədii kompozisiya təqdim edilib, Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunan ağacəkmə aksiyası keçirilib. Daşkəsən rayon Heydər Əliyev Mərkəzində gənc yazar Etibar Həsənzadənin "Qarabağ Azərbaycandır!" layihəsinin təqdimat mərasimi olub. Göygöl, Daşkəsən və Gədəbəy rayonlarının bir sıra mədəniyyət müəssisələrində də tədbirlər keçirilib.

***

Cəlilabad rayonunda 27 sentyabr – Anım Günü ilə əlaqədar ümumrayon tədbiri keçirilib. Rayon rəsmiləri, ictimaiyyət nümayəndələri, Masallı Regional Mədəniyyət İdarəsinin əməkdaşları, şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları tərəfindən "Əbədi məşəl" önünə gül dəstələri qoyulub. Anım mərasimi Cəlilabad Dövlət Rəsm Qalereyasında gənc rəssamların əl işlərindən ibarət sərgiyə baxışla davam etdirilib. Sonra rayon Heydər Əliyev Mərkəzində Xalq teatrı kollektivinin "Zəfər yürüşü" adlı tamaşası oynanılıb. Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyi, rayon Mərkəzi Kitabxanası, MKS-nin Xırmandalı kənd kitabxana filialı və Yardımlı rayon MKS də Anım Günü ilə bağlı tədbirlər keçiriblər.

***

Lənkəran şəhərində də Anım Günü ilə bağlı tədbir keçirilib. Tədbirdə şəhər rəhbərliyi, millət vəkilləri, Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov, idarə və müəssisələrin rəhbərləri, şəhidlərin ailələri, qazilər, şəhər sakinləri iştirak ediblər.

***

Bərdə Regional Mədəniyyət İdarəsi Bərdə rayon MKS-nin şəhər 2 saylı kitabxana filialı "Vətən fədailəri" adlı kitab sərgisi təşkil edib.

***

Sabirabad Regional Mədəniyyət İdarəsinin rəisi Fərid Qurbanzadə və idarənin əməkdaşları rayonun Şəhidlər xiyabanını ziyarət ediblər.

***

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Xucbala, Alpan və Qamqam kənd kitabxana filiallarında Anım Günü ilə əlaqədar tədbirlər keçirilib.

***

Ağcabədi rayon Şəhidlər xiyabanında təşkil olunan anım tədbirində Ağcabədi Regional Mədəniyyət İdarəsinin rəisi Qalib Həsənov və idarənin əməkdaşları iştirak ediblər. Ağdam rayon Heydər Əliyev Mərkəzi, rayon Xan Şuşinski adına Uşaq muğam musiqi məktəbi və Laçın Rayon Tarix-Diyarşünaslıq Muzeyi də Anım Günü ilə bağlı tədbirlər təşkil ediblər.

***



Biləsuvar Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Salyan rayonunun bir sıra mədəniyyət müəssisələrinin əməkdaşları Vətən müharibəsi şəhidi Müseyib Zeynalovun ailəsinə baş çəkiblər.

***

Şəki Regional Mədəniyyət İdarəsi Şəki şəhər Heydər Əliyev Mərkəzində Vətən müharibəsi qaziləri ilə görüş keçirilib. Tədbirdə millət vəkili Əli Məsimli, şəhər İcra Hakimiyyətinin nümayəndələri. iştirak ediblər. İdarənin tabeliyindəki Zaqatala rayon Nizami Gəncəvi adına Mərkəzi Kitabxanada azad olunmuş ərazilərimiz haqqında biblioqrafik vəsait hazırlanıb. Vəsait kitabxananın baş biblioqrafı Yasəmən Məmmədova tərəfindən tərtib edilib. Zaqatala rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi Səyyad Hacıyev haqqında rejissor Namiq Kərimov tərəfindən hazırlanmış filmin və klipin təqdimatı keçirilib. Şəki şəhər, Oğuz, Qax, Zaqatala və Balakən rayonlarının bir sıra mədəniyyət müəssisələrində də Anım Günü ilə bağlı tədbirlər təşkil olunub.

***



Gəncə Regional Mədəniyyət İdarəsi F.Əmirov adına Gəncə şəhər 1 nömrəli Uşaq musiqi məktəbində Anım Günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə məktəbin tar müəllimi Tural Əliyev və fortepianoda Elnur Hüseynovun müşayiəti ilə məktəbin vokal müəllimi Şahnaz Məmmədova "Xudayar təsnifi"ni ifa edib. Goranboy Dövlət Rəsm Qalereyası hərbi-vətənpərvərlik mövzusunda rəsm sərgisi təşkil edib. Regional idarənin əhatə etdiyi Gəncə, Naftalan şəhər, Samux, Goranboy, Kəlbəcər və Xocalı rayonunun bir sıra mədəniyyət müəssisələrində də anım tədbirləri keçirilib.

***

Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı və Beyləqan rayon mədəniyyət müəssisələrinin rəhbərləri Vətən müharibəsi şəhidi Vasif Quliyevin ailəsini ziyarət ediblər. Kürdəmir rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsi iştirakçıları və şəhidlərinin xatirəsinə həsr edilmiş "Şəhidlər ölməz, Vətən bölünməz!" adlı ədəbi-bədii kompozisiya təqdim olunub. Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini müvəqqəti icra edən Ağəli Kərimli və regional idarənin rəisi Faiq Xudanlı çıxış ediblər. İmişli rayon Uşaq musiqi məktəbində Vətən müharibəsi şəhidi Elçin İsmayılovun xatirəsinə həsr olunmuş tədbir keçirilib.

Kürdəmir Regional Mədəniyyət İdarəsi Kürdəmir rayon Heydər Əliyev Mərkəzində N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialının müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızının "Ölümü ömür seçənlər" kitabının təqdimatı olub. Kitabda kürdəmirli 39 Vətən müharibəsi şəhidinin ömür və döyüş yolundan bəhs edən oçerklər yer alıb. Kürdəmir Rayon İcra Hakimiyyəti başçısının vəzifəsini müvəqqəti icra edən Ağəli Kərimli, Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı və başqaları nəşri şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsinə layiqli töhfə kimi dəyərləndiriblər. Sonda kitab şəhid ailələrinə hədiyyə edilib.

***

Ağstafa Regional Mədəniyyət İdarəsinin dəstəyi, Ağstafa və Tovuz rayon Mədəniyyət mərkəzlərinin birgə təşkilatçılığı ilə şəhidlərin xatirəsinə həsr olunmuş "Fateh" adlı tamaşa nümayiş olunub. Mərasimdə rayon rəhbərliyi, regional idarənin rəisi Elbəy Əli, ictimaiyyət nümayəndələri və mədəniyyət işçiləri iştirak ediblər. Ağstafa, Qazax və Tovuz rayonlarının bir sıra mədəniyyət müəssisələrində də Anım Günü ilə bağlı tədbirlər keçirilib.

***



Ağdaş Regional Mədəniyyət İdarəsi Göyçay rayon MKS-də "II Qarabağ müharibəsi dövlətçilik tariximizin ən şərəfli zirvəsidir" adlı tədbir təşkil olunub. Göyçay rayon Heydər Əliyev Mərkəzi və 1 saylı kitabxana filialının birgə təşkilatçılığı ilə Vətən müharibəsi qazisi İlkin Məmmədovla görüş keçirilib. Ucar rayon Heydər Əliyev Mərkəzində "Dəmir yumruq" sənədli filmi nümayiş olunub.

***

İsmayıllı Regional Mədəniyyət İdarəsi İsmayıllı rayon MKS-nin Uşaq şöbəsində "Şəhidlər ölməz, Vətən bölünməz!" başlıqlı fotoguşə təşkil edilib. Qəbələ rayon Mədəniyyət Mərkəzində "Polad Həşimov xatirələrdə" kitabının müzakirəsi keçirilib.

***



Sumqayıt şəhərindəki bulvarın ərazisində şəhidlərimizin xatirəsinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib. Aksiyada Sumqayıt Regional Mədəniyyət İdarəsinin əməkdaşları tərəfindən 100-ə yaxın həmişəyaşıl ağac əkilib. Daha sonra Sumqayıt Şəhidlər xiyabanında Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş 122 sumqayıtlı şəhidin böyüdülmüş fotoşəkilləri açıq havada ziyarətçilərə nümayiş etdirilib. Həmçinin "Zəfər dastanı" adlı videoçarx sosial şəbəkələrdə yayımlanıb. Abşeron, Zəngilan və Qubadlı rayonlarının bir sıra mədəniyyət müəssisələri də Anım Günü ilə bağlı tədbirlər təşkil ediblər.

**Hazırladı: N.MƏMMƏDLİ**

# "Yollar qaytarar səni"

## Şəkidə Xalq teatrının tamaşası

Sentyabrın 28-də Şəki Regional Mədəniyyət İdarəsi M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzi nəzdində fəaliyyət göstərən Xalq teatrında Vətən müharibəsinin başlanmasının ildönümünə həsr olunmuş "Yollar qaytarar səni" adlı birpərdəli pyesin ilk tamaşası olub.

Tamaşada Vətən müharibəsi vaxtı hərbi xidmətdə olmuş Ümid adlı gəncin anasının və nişanlısının narahatçılığı, arzuları, ümidləri və xəyalları, müharibənin insanlara gətirdiyi faciələr tamaşaçılara çatdırılmağa çalışılır. Ordumuzun qələbə əzmindən, mübarizliyindən bəhs olunur.

Tamaşanın rejissoru Elvin Nüsrətoğlu, pyesin müəllifi S.Rəhman adı-



na Şəki Dövlət Dram Teatrının baletmeyster-xoreoqrafı Elvin Nuridir. E.Nuri Bakı Xoreoqrafiya Akademiyasında quruluşçu xoreoqraf ixtisası üzrə subbakalavr, Mədəniyyət və İncəsənət Universitetində aktyor sənəti ixtisası üzrə bakalavr təhsili alıb, hazırda universitetdə dram rejissoru ixtisası üzrə bakalavr təhsili alır.

Tamaşada rolları Xalq Teatrının aktyorları Jalə Abdullayeva, Rəşad Rüstəmov, Aytən Xəlilzadə, Şahmar Əsədov, Natiq Məmmədov və başqaları oynayıblar.

# Füzuli Dövlət Dram Teatrında “Yaddaş”

## Hərbçilərə nümayiş olunub

Füzuli Dövlət Dram Teatrında 27 sentyabr – Anım Günü ilə əlaqədar tədbir təşkil olunub. Hərbi qulluqçuların iştirakı ilə keçirilən tədbirdə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Anım Günü münasibətilə Ali Baş Komandan İlham Əliyevin iştirakı ilə Bakıda keçirilmiş yürüşü əks etdirən videoçarx nümayiş olunub.

Sonra teatrın repertuarında olan Akif Həsənoğlunun “Yaddaş” tamaşası hərbçilərə təqdim edilib. Tamaşa xalqımıza Qələbə sevincini yaşadan şəhidlərimizin əziz xatirəsinə həsr olunub.

Tamaşanın quruluşçu rejissoru Asif Şirinov, quruluşçu rəssamı Ellinaz Balaşovadır. Rollarda Qaçaq Qarayev, İntizar Quliyeva, Sehran Xanlarov, Əli Hüseynov, Sevinc Məmmədova və başqaları çıxış edib.






# “23:59 qatarı”nın premyerası

## Ahıllar evi sakinlərinin iştirakı ilə

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Sosial Xidmətlər Agentliyi və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Toyqun Orbayın “21:15 qatarı” əsərinin motivləri əsasında “23:59 qatarı” adlı birpərdəli tamaşa hazırlanıb.

Baş idarədən bildirilib ki, oyun janrında hazırlanan tamaşada rolları Ahıllar evinin sakinləri ifa edəcəklər.

Tənhalıq, ümid və arzuların, xəyalların gerçəkləşməsinə, gec-tez bu stansiyada o məşum qatarın perrona gələcəyinə inam əsərin əsas qayəsini təşkil edir və insan psixologiyasının müxtəlif hadisələrə reaksiyasını əks etdirir. Lakin bu tənha stansiyada nə saatın əqrəbləri dəyişir, nə də qatarın fiti eşidilmir...

Tamaşanın quruluşçu rejissoru Lalə Hadıyevadır. Tamaşa oktyabrın 1-də Hacıağa Abbasov adına Mədəniyyət Mərkəzində göstəriləcək.

Qeyd edək ki, 1 oktyabr Beynəlxalq Ahıllar Günüdür. Bu gün BMT Baş Assambleyasının 14 dekabr 1990-cı il tarixli qətnaməsi ilə təsis edilib.

# “Gənc teatr prodüserləri üçün laboratoriya”ya qəbul davam edir

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi teatr təhsili sahəsində islahatların aparılması, kadr potensialının yüksəldilməsi məqsədilə “Gənc teatr prodüserləri üçün laboratoriya” layihəsinə başlayıb.




Mədəniyyət Nazirliyinin Rusiya Dövlət Teatr Səməti İnstitutu (QİTİS) ilə birgə təşkil etdiyi prodüserlər üçün laboratoriya Azərbayanda teatr menecmentinin və prodüserlik strukturunun inkişafı, teatr idarəetməsi sahəsində gənc nəslin bilik və bacarıqlarının artırılması məqsədini qarşıya qoyur. Laboratoriya Mədəniyyət Nazirliyinin strateji hədəflərə istiqamətlənmiş silsilə layihələrinin davamıdır.

YARAT Müasir İncəsənət Məkanında təşkil ediləcək laboratoriyada teatr təhsili sahəsində dünyanın nüfuzlu ali məktəblərindən olan QİTİS-in prodüserlik sahəsi üzrə zəngin təcrübəyə malik pedaqoqları Yelena Simurzina, Aleksandra Knyazeva, Elşən Məmmədov müasir teatr menecmenti və prodüserlik fəaliyyəti ilə bağlı bilik və bacarıqlarını bölüşəcəklər. Menecment və prodüserlik sahəsinə maraq göstərən gənclərə laboratoriyada pulsuz iştirak etmək imkanı yaradılır.

Qeyd edək ki, təlimlərə qoşulmaq istəyənlərin çoxluğu nəzərə alınaraq, müraciət müddəti 15 oktyabr tarixinədək uzadılıb. Təlimlərin vaxtı isə 24-31 oktyabr tarixinə keçirilib.

İştirak etmək istəyənlər qeyd olunan (15 oktyabr) tarixədək müraciət formasını dolduraraq k.jafarova@mct.gov.az elektron poçt ünvanına göndərə bilərlər.

# Bəxtimizə düşən söhbət

## Vidadi Həsənov: “Şükürlər olsun ki, teatrlar açılır, deməli, teatrlar komadan çıxır, teatrda çalışanlar isə uzunmüddətli məzuniyyət dövrünü başa vururlar”

Əslində, xeyli əqdəm söhbətləşmək niyyətim var idi... Gah, onun tamaşa, kino, serialdakı işləri, gah da pandemiyanın “evdə qal”ı imkan vermirdi. Elə indi də: maşallah, festivallardan, çəkilişlərdən, müəllifi olduğu kitabın imza günündən başı açılmır. Nəhayət, Kazan Beynəlxalq Müsəlman Kinosu Festivalından qayıdandan sonra görüşdük. Beləliklə, həmsöhbətim Xalq artisti, Yuğ Dövlət Teatrının aktyoru, rejissor, ssenarist, şair, tərcüməçi, ADMİU-nun dosenti Vidadi Həsənovdur. Söhbətimiz Yuğ-un məkan tapdığı Kukla Teatrının binası ətrafında, bulvarın sakit bir guşəsində baş tutdu.

*– Səfəriniz necə keçdi, Vidadi müəllim?*

– Həm uğurlu, həm də yaddaqalan. Üç nəfər idik: Əməkdar incəsənət xadimi, Kazan festivalının münsiflər heyətinin sədri, kinorejissor Elçin Musaoğlu, festivalın qısametrajlı filmlər müsabiqəsində təqdim olunan “Bastard” filminin rejissoru Daniel Quliyev (bu müsabiqədə Elvin Adıgözəlin “Biləsuvar” filmi də var idi), bir də, bəndəniz – həm müsabiqədənkənar nümayiş olunan “Daxildəki ada” (rejissor Rüfət Həsənov) filmində əsas rollardan birinin ifaçısı kimi, həm də festivalın fəxri qonağı olaraq – ölkəmizi bu nüfuzlu tədbirdə təmsil etdik. “Bastard” filmi münsiflər heyətinin xüsusi mükafatına layiq görüldü. Mən festivalın təntənəli açılışında gitarada “Qapı” (söz: Ramiz Rövşən) mahnısını oxudum. Qeyri-təvazökarlıq olmasın, yaxşı qarşılandı. İki gün sonra isə, “Rodina” kinoteatrında mənim “yaradıcılıq gecəm” oldu... Bu səfərlə bağlı bütün məlumatları sosial şəbəkələrdə mütəmadi paylaşıram...

*– Şükür ki, nəhayət, teatrlar açılır. “Teatrlar açılsın” deyə etiraz səsini ucaldanlardan biri idiniz. Bəs teatrsız necə idi?*

– Niyə teatrsız? Mən demək olar ki, hər gün teatra gəlib-gedirdim.

*– Hə, hər danışanda “teatrdayam” deyirdiz. Bu teatr üçün darıxmağı “öldürmək” idi, yoxsa prosesdə olmaq kimi görünmək?*

– Nə mən teatr üçün əldən-ayaqdan gedirəm, nə də teatrın məndən ötrü ürəyi gedir. Bu yaşda romantik-poetik “izhari-qəlb” kənardan gülünc görünə bilər. Sadəcə olaraq, arada gəlirdim, bir az teatrın, bir az da bulvarın təmiz havasını alırdım...

*– Yaxşı edirsiz, onsuz da səhnə, teatr yox idi, ən yaxşısı bulvarda təmiz hava almaq idi..*

– Bilirəm e!... Siz məndən hansı cavabı almaq istəyirsiz (gülürük). Məsələ heç də elə deyil. Vəziyyəti süni şəkildə dramatikləşdirmək lazım deyil. Nə bilim, “Ay mənim teatrsız nəfəsim çatmır!”, ay nə bilim, “Teatrsız ölürəm!...”. filan. Hamının şükür, nəfəsi də çatdı və heç bir ölüm-itim də olmadı. Özümüzdən də hoqqa çıxartmalı deyildik ki?... Məşhur bir filmdə deyildiyi kimi, hökumətlə hökumətlik eləməyəcəksən ki?! Həyat və mühit şərtləri belə idi: deyirdilər bu olar, bu olmaz... Bizə qalırdı, ancaq etirazımızı ifadə etmək. Demokratik ölkədə yaşadığımız üçün nə qədər istəsək, etiraz edə bilərik... Şükür, bəlli oldu ki, belə uzun zaman davam edə bilməz. Hətta virusun yeni ştamları daban-dabana gəlsələr belə, biz şəraitə uyğunlaşıb yaşamağı öyrənməliyik.

*– Yaşamağı, yoxsa işləməyi?*

– İşləmək fəaliyyətdir, fəaliyyət isə yaşamaqdı. Sizə bir şeyi deyim: pandemiyanın bizdən də qat-qat artıq tüğyan etdiyi bəzi ölkələr teatrlarını mövcud vəziyyətə uyğunlaşdıraraq onların fəaliyyətini dayandırmadı. Necə ki, restoranlar, şadlıq evləri, ticarət məkanları işlədi, eləcə də teatrları açmaq olardı... Bəzən “məbəd” deyilən bu təsisatın işləməsi, həm də ona görə lazımdır ki, teatr mənəvi dəyər yaradır və bu dəyərlər olmasa, toplum əvvəl-axır qaragüruha çevrilə bilər.

*– Pandemiyanın doğurduğu fasilə bir çoxlarına – məsələn, özü teatrda, ruhu başqa yerdə pərvazlananlara teatrın lazımsız olduğunu deməyə imkan da yaratdı. Hətta, necə deyərlər, topu teatr təmsilçilərinin, ələlxüsus da aktyorların üstünə ataraq, onsuz da işləmədən maaş alırsınız deyənlər oldu...*

– Teatrda həmişə iki qisim sənətçilər olub: başını aşağı salıb işləyən əsl sənətçilər, bir də teatrdan özləri üçün faydalanan psevdosənətçilər. Yəni, var peşəkarlar, sözün əsl mənasında, özlərini işinə, sənətinə həsr edənlər, bir də var hər şeydə mənfəətini güdənlər. Onlar həmişə elə bağırırlar ki, “doğruların bağrı çatlayır”. Belələrinə qətiyyən fikir vermək lazım deyil...

*– Belə fikirlər daha çox gənclərdən eşidilir...*

– Həə, bax bu, tamamilə başqa məsələdi... Gənc belə də, hərdənbir deyə bilər... Deyim niyə. Gənc olan kəs elə belə olmalıdır də – barışmaz, tələbkar, dəliqanlı... Onlar özlərindən qabaqdakılara: “Sən artıq köhnəlmisən!” və ya “İndi başqa zamandı!” deməlidirlər də. Qoy desinlər, dünya dağılmayacaq ki... Qoy bir az “inqilabçılıq” eləsinlər. Axı, biz də bir vaxtlar belə olmuşuq. U.Çörçillin bir sözü var, dəqiq yadımda deyil, təxminən belədi: “Əgər, sən otuz yaşına qədər inqilabçısansa, demək, gəncsən, yox əgər, qırx yaşından sonra da inqilabçılıq edirsənsə, demək, axmaqsan!...”. Cavanlarımızla bağlı bir az həssas, bir az da səbirli olmalıyıq. Zaman hər şeyi sahmanlayacaq. Zaman gələcək yaşlaşacaqlar, müdrikləşəcəklər, hərdən düzün bir balaca əyriş-üyrüş, əyrinin heç vaxt dübbədüz olmadığını biləcəklər... Onların da arxasınca çaparaq gələn, onları da daban-dabana haqlayan gənclik, elə özləri kimi, inqilabçı və barışmaz olacaq... O ki qaldı teatrı özlərində deyil, özlərini teatrda sevənlərə...



Onların əxlaqi və mədəni səviyyəsinə enmədən, gərəkdir ki, əndazədən çıxırlarsa, həddlərini qandırasan...

*– Sosial şəbəkələrdə də çox aktivsiz, mütəmadi ironik, satirik paylaşımlarınızı oxuyuruq. Görəsən, sözünüz ünvanına çatır?*

– Dədələrimiz deyir ki, sən sözünü de, yiyəsi özü götürəcək. Rəngimin qara olmağına baxmayın, mən çox qırmızı adamam. Düşündüyümü deməkdən heç vaxt çəkinməmişəm. Dediklərim də, sərrast güllə kimi, həmişə hədəfinə çatıb. Hədəf sahiblərinin bəziləri cavab verməyə cəsarət etməyib, bəziləri cavab verəcəyi təqdirdə öz bəsitliyini büruzə verəcəyindən qorxub, bəziləri də yəqin yaşıma hörmət edib susub, fikirləşiblər ki, qoca kişidi də, yəqin xərifləyib. Hərdən eləsi də tapılır ki, cavab qaytarır, hətta həyasızlıq edir. Onda sən də başlayırsan onun öz dilində danışmağa.

*– Son zamanlar daha çox teatrdan bu və ya digər şəkildə uzaqlaş(dırıl)mış və kinini teatra ünvanlayan adamların səsi bərk çıxır. Elə bil incidikləri adamların intiqamını teatrdan alırlar...*

– Vallah, bundan teatra heç bir zərər dəymir. Axı, teatr ayrı-ayrı fərdlərin yaratdığı bir şey deyil ki, onlarla da məhv olub getsin. Teatr əbədidir – o öz sehri və tilsimi ilə çoxdan insanların həyatına girib və orada özünə əbədi yer tutub. O, elə bil, yerdən göyə ucalmış almaz sütundur. Əsrlərlə yol gələn bir şeyi məhv etmək üçün əsrlər gərəkdir.

*– Günümüzdən boylanaraq milli teatrımızı analiz edənlərdən bəziləri “Teatrı zaman və mühit yaratmışdı, inkişaf etdirmişdi, indi isə teatr tənəzzül dövrünü yaşayır” deyirlər.*

– Teatr ictimai aləmdən, sosial mühitdən kənarda, uzaqda olan, əlahiddə bir şey deyil axı... O, həyatın bir parçasıdır. İqtisadiyyatda, sənayedə, səhiyyədə, təhsildə, bir sözlə, ictimai mühitdə, cəmiyyətdə nə baş verirsə, teatrda da oxşar şeylər baş verir. Zaman-zaman yüksəliş də olur, tənəzzül də. Lap insanın ruh halı kimi. Kardioqram kimi: gah yuxarı, gah da aşağı. Teatr prosesi düz xətlə gedən – daim yüksəlişdə və ya daim enişdə olan proses olmayıb heç vaxt. Əslində, biz elə bundan – yəni, hər şeyin düzxətli getməsindən qorxmalıyıq, çünki bu, koma vəziyyətidir.

*– Teatr indi hansı dövrünü yaşayır?*

– Şükürlər olsun ki, teatr, kino zalları, konsert salonları açılır, deməli, teatrlar da komadan çıxırlar, teatrda çalışanlar isə uzunmüddətli məzuniyyət dövrünü başa vurdular. Qocalı-cavanlı, hamımız sanki təqaüdə çıxmışdıq. Deyirdilər: “Evdə qal!” – kirimişcə evdə qalırdıq, deyirdilər “şənbə-bazar qapanın!” – dinməz-söyləməz qapanırdıq... Nə isə!... Qayıdaq mətləb üstə. Teatr indi post-pandemiya dövrünə başlayır. Bəli, asan olmayacaq. Müəyyən zaman lazım gələcək. Bəzi bədgümanlardan fərqli olaraq, inanıram ki, həyatını teatra həsr etmiş əsl sənət fədailəri bu müşkül kimi görünən işin öhdəsindən tez bir zamanda gələcək və teatrsevərlər yenidən istədikləri teatrda, istədikləri tamaşalara baxa biləcəklər... Bu məqamda xirtdəyimə tıx kimi ilişib qalan bəzi sözləri də deməsəm olmaz. Baxın, mədəniyyət müəssisələrinin açılması ilə bağlı qərar çıxan kimi, bəzi dönüklər, bəzi əlləri teatra çatmayanlar haman başladılar ki: “Nə teatr, teatr yoxdu!” və yaxud, “Nə tamaşa, tamaşa var ki?”... Teatrları “yıxıb-sürüyürlər”, amma, ürəkləri yenə soyumur və haman da keçirlər kinoya. Bəs, deməzsənmi, kino da lap çoxdan ölüb, bunlardan başqa heç kimin bundan xəbəri yoxdu... Əslində, bu natamamlığın da səbəbi eynidi, əlləri çatmır. Halbuki bütün çətinliklərə rəğmən, Azərbaycan kinosunun uğuru göz qabağındadır. Son illər beynəlxalq səviyyədə keçirilən hansı festivalın proqramına baxsan bir deyil, bir neçə filmimizin adına rast gələrsən və onlar müxtəlif mükafatlara layiq görülürlər... Hərdən istedadlı insanlara qarşı, iliyinəcən paxıllıqla dolu bu natəmiz, mənəviyyatsız məxluqlara üzünü tutub ağzına gələni demək istəyirsən, amma, ”Lənət şeytana!” – deyib, susursan, baş qoşmursan...

*– Gəlin, söhbətə başqa yöndən davam edək. Bu teatrsızlıq zamanı yeni teatr formaları haqqında çox danışıldı...*

– Yalnız danışılmadı, məsləhət külliyatlı fikirlər söylənildi (məsləhət verməkdən asan nə var?), hətta yenidən Amerikanı kəşf etmək istəyənlər də oldu. Yeni ifadə formaları – performanslar, interaktiv tamaşalar, onlayn nümayişlər, küçə göstəriləri və s. Belə baxanda niyə də olmasın? Əgər teatr “Dionis bayramı” olaraq meydanda, yəni kütlə arasında yaranıbsa, niyə də yenidən zamanın və mühitin tələbi olaraq meydana qayıtmasın? İlk baxışdan hətta çox cazibədar səslənir. Məsləhət verənlər sağ olsunlar, amma onu da demək lazımdır ki, teatr bu günə gəlib çatana qədər dondan-dona girib, bir biçimdən min biçimə girib, “izm”lərin və cərəyanların burulğanlarından çıxıb. Əslində, bu müxtəlif teatr formaları çoxdan olmalı idi. Küçə teatrı? Onlayn nümayiş? Və nələr, nələr? Niyə də olmasın? Teatrların sayı çox olmalıdır. Akademik, musiqili, yuğ, kukla, pantomima, zirzəmi, book-kafe, küçə, dəhliz, çardaq və s. və i. a. Belə olanda hara getmək, nəyə baxmaq hər kəsin zövqündən, dünyagörüşündən, sadəcə, istəyindən asılı olur.

> “Teatrların sayı çox olmalıdır. Akademik, musiqili, yuğ, kukla, pantomima, zirzəmi, book-kafe, küçə, dəhliz, çardaq və s. və i. a. Belə olanda hara getmək, nəyə baxmaq hər kəsin zövqündən, dünyagörüşündən, sadəcə, istəyindən asılı olur...”

Əgər bu teatrlar olsaydı, bizə “Gedin, küçədə teatr çıxardın da!” deyən olmazdı. Təsəvvür edə bilirsiz, akademik və ya musiqili teatrın hansısa bir tamaşasını – bütün dəm-dəsgahı ilə parkların birində göstəririk?... Yaxud Yuğun hansısa bir tamaşasını onun hücrəsindən çıxardıb uyğunlaşdıra biləcəyiniz bir məkan necə?... Təsəvvür edə bilirsiz?

*– Yox.*

– Əlbəttə, yox. Bu, artıq tamaşa yox, teatr yox, başqa bir şey olacaq.

*– Bəlkə bizə o funksiyanı yerinə yetirməyən, yüklü dekorasiya, tərtibatı olmayan, qalaqlanmış mətndən azad, hərəkət, birbaşa ünsiyyət, maneəsiz tamaşaçı aktyor rabitəsi lazımdır?*

– Əgər, sizə belə bir şey lazımdırsa, ora gedin. Yox, əgər “ora”, haman o siz deyən yoxdursa, axtarın tapın. Bizdə tapmazsız, xaricdə taparsız – gedərsiz... Əsrlərdir teatrda yeni formalar, yeni üsullar və yeni ifadə vasitələri axtarırlar. Amma bunu heç vaxt tarixi və ənənəvi olanı məhv etməklə həyata keçirməyiblər, əksinə, “unudulmuş təzəni” həmişə illərin sınağından çıxmış “etibarlı köhnə”nin üstündə bərqərar ediblər. Dədələrimiz demişkən: “Keçmişinə təpik atsan, gələcəkdə uzunqulaq olarsan!...”. Özü də Azərbaycan teatrı bir neçə cür və bir neçə dəfə bu yeniliklərdən keçib. Götürək elə ötən əsrin 90-cı illərini. Görün, ölkəmizdə nə qədər yeni teatrlar yarandı. Həyat və mühit şərtlərinin indikindən də çətin olmasına baxmayaraq.

*– Pandemiyadan əvvəl bu proses yenidən canlandı. Siz də daxil, bir neçə yaradıcı şəxs müstəqil teatrlar yaratdılar. Hətta bir müddət tamaşa nümayişləri üçün ödənişsiz məkanlarla da təmin olundular...*

– Bilirsiz ki, Mədəniyyət Nazirliyi yanında İctimai Şura yaradılıb. Şuranın bu yaxınlarda keçirilən iclasında mən – ekspert qrupunun üzvü olaraq, müstəqil teatrlarla bağlı öz təkliflərimi irəli sürdüm. Bu təkliflər hamı tərəfindən bəyənildi, qəbul olundu. Düşünürəm ki, bu il müstəqil teatrların yaranması və inkişafı üçün çox əhəmiyyətli bir il olacaq.

*– Vidadi Həsənov son illər daha çox kino çəkilişlərində olur, səsi-sorağı kinofestivallardan gəlir. Teatr aktyorunun səhnə sevgisi kinoya paxıllıq eləmir?*

– Son beş ildə dörd filmə çəkilmişəm. Sevinirəm ki, onların hamısının quruluşçu rejissorları artıq ölkəmizdə, hətta beynəlxalq aləmdə kifayət qədər tanınmış gənc sənətkarlardır. Rüfət Həsənovun “Daxildəki ada” tammetrajlı filmi ilə bu yaxınlarda Serbiyada, Paliç kinofestivalında və Kazanda festivalda oldum. Hər iki festivalda Azərbaycan kinosuna olan marağı və münasibəti görmək qürurverici idi. Zənnimcə, Emil Quliyevin “Sonuncu pərdə”, eləcə də Əli-Səttar Quliyevin “Olimpiya” filmləri də bu çətin dövrdə kinomuzun böyük uğurudur. Hazırda çəkildiyim filmlə bağlı isə yaxın vaxtlarda söhbətləşərik, inşaallah... O ki qaldı sizin dediyiniz paxıllıq məsələsinə... Mənim diplomumdakı ixtisasımın adı belədir: “Teatr və kino aktyoru”. Mən teatrı kino qədər, kinonu da teatr qədər sevdiyim üçün onlar da yəqin bir-birilərinə “günü” kimi baxmırlar.

*– Sizdən uzun illərin pedaqoqu, eləcə də gənclərlə yaxşı işbirliyi, ünsiyyət quran təcrübəli bir sənətkar kimi soruşmaq istəyirəm: onlarda sizi qane edən və etməyən nədi?*

– Hər şey!... Heç nə!... Qane edən – hər şey! Qane etməyən – heç nə!

**Söhbətləşdi:**
**Həmidə NİZAMİQIZI**

# "Azərbaycanın ərazi bütövlüyü şəhidlərin canları hesabına inşa edilmiş abidədir"

## Memorial.az – "Yaddaş kitabı"nın təqdimatı keçirilib

Ötən bir il ərzində biz yenilənmiş Azərbaycana daxildən və xaricdən baxışın fundamental dəyişməsinin, ölkəmizə və xalqımıza qarşı oturuşmuş stereotiplərin dağılmasının, dünyanın tamamilə yeni bir Azərbaycanı kəşf etməsinin şahidi olduq. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını özü təmin etdi. Bu, yəqin ki, BMT-nin yarandığı vaxtdan bu günə qədər dünyada ilk belə haldır.




Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova bu sözləri sentyabrın 28-də "Memorial.az saytı – "Yaddaş kitabı" layihəsinin təqdimatında deyib.

Səadət Yusifova qeyd edib ki, biz 44 günlük müharibənin və Zəfərimizin doğurduğu yeni reallığın yalnız Cənubi Qafqaza deyil, bütövlükdə regiona yaxın və ortamüddətli perspektivdə təsirini görsək də, uzunmüddətli perspektivdə onun doğurduğu nəticələrin yeni dünya nizamı üçün qlobal əhəmiyyətini bəlkə də hələlik, sona qədər dərk etmirik. Prezident İlham Əliyevin dediyi kimi, "Azərbaycan xalqı müzəffər xalq kimi öz adını dünya tarixinə yazdı. Zəfərimizin əks-sədasını biz hələ uzun müddət duyacaq və eşidəcəyik. Bu Zəfərin əsasında Azərbaycan Prezidentinin uzunmüddətli hədəflərə hesablanmış çoxşaxəli strategiyası, ölkəmizin iqtisadi, siyasi, hərbi, diplomatik, informasiya istiqamətlərində güclənməsi və möhkəmlənməsi məqsədilə uzun illər ərzində böyük əzmlə gördüyü işlər və Prezident - ordu - xalq birliyi dayanır.

Vurğulanıb ki, təqdim olunan layihə Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızın xatirəsinin əbədiləşdirilməsinə həsr edilib. Hər bir azərbaycanlı üçün yaddaş kitabı yalnız Vətəni uğrunda şəhid olmuş qəhrəmanların fədakarlıqlarının xatırlanması deyil, həm də onların əmanəti olan bu Vətənin daha da güclənməsi üçün bizim üzərimizə düşən məsuliyyətin dərk edilməsidir. "Bu, ərazi bütövlüyünün, istiqlalın və Zəfərin asanlıqla əldə olunmadığının bir xatırlatmasıdır, Azərbaycan xalqının həmrəyliyinin və dövlətimizin qüdrətinin daha bir nişanəsidir. Şəhidlərimizin fədakarlığının bu mahiyyəti xalq olaraq kollektiv idrakımızda daim əks olunacaq, çünki Azərbaycanın ərazi bütövlüyü onların canları hesabına inşa edilmiş abidədir", – deyə o vurğulayıb.

Memorial.az saytının yaradılmasının məqsədindən danışan Səadət Yusifova bildirib ki, şəhidlər mövzusu Azərbaycan xalqı üçün həmişə həssas və müqəddəs mövzudur. Vətən müharibəsinin gedişində və müharibədən sonra müxtəlif informasiya resurslarında, media orqanlarında şəhidlərimiz haqqında müxtəlif məlumatlar paylaşılır. Bu məlumatlar cəmiyyətdə böyük maraqla qarşılansa da, informasiyanın yayılması pərakəndə və sistemsiz xarakter daşıyır. Memorial.az saytının yaradılmasında da əsas məqsədlərdən biri bu pərakəndəliyi aradan qaldıraraq, tarixi yaddaşın formalaşdırılmasına sistemli yanaşmanı tətbiq etmək, hər bir qəhrəmanımız haqqında müfəssəl məlumatları vahid elektron resursda cəmləşdirmək, onları Azərbaycan xalqına daha yaxşı tanıtmaqdır. Perspektivdə saytın funksionallığının və əhatəsinin daha da artırılması nəzərdə tutulur. Bununla bağlı 2016-cı il Aprel döyüşləri şəhidlərinin, atəşkəs dövrü şəhidlərinin, Birinci Qarabağ müharibəsi şəhidlərinin və ümumilikdə münaqişənin gedişində həlak olmuş hərbi qulluqçular və mülki şəxslər haqqında da məlumatların sistemləşdirilməsi nəzərdə tutulur.



Sonra memorial.az saytının baş redaktoru Vüsal Məmmədov layihə barədə məlumat verib. Bildirib ki, saytda daha geniş məlumatlar üçün şəhidlərin ailələri ilə sıx əlaqədə olacağıq. Bundan sonra onların virtual həyatlarını davam etdirəcəyik.

Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri, deputat Zahid Oruc deyib ki, memorial.az – yaddaş kitabının yaradılması şəhidlərimizin müqəddəs əməllərini tarixiləşdirmək və gələcək nəsillərə ötürmək baxımından mühüm hadisədir: "Ötən il bu vaxt arxa və ön cəbhə birləşdi. Millətin düşmənə qarşı səngəri vahid oldu. Qanını torpağa verən oğulların əvəzinə Vətən və azadlıq, sevinc və bütövlük doğulub".

Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov şəhidlərin ailə üzvləri və qazilərə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışıb. Bildirib ki, Sosial Xidmətlər Agentliyi tərəfindən "Unudulmaz" mobil tətbiqi hazırlanır. İyun ayında bu tətbiqin ilkin təqdimatı olub, bu, şəhid və qazilərimizin döyüş yolu, təltifləri, cəmiyyətə daha yaxından tanıdılması məqsədi daşıyır.

# Tanınmış filosof alim Zümrüd Quluzadə vəfat edib



Əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru Zümrüd Quluzadə sentyabrın 26-da, ömrünün 90-cı ilində vəfat edib.

Zümrüd Əliqulu qızı Quluzadə 1932-ci il martın 17-də Bakıda anadan olub. 1954-cü ildə Azərbaycan Dövlət Universitetinin (BDU) Tarix fakültəsinin fəlsəfə şöbəsini fərqlənmə diplomu ilə bitirib. 1959-cu ildə Moskva Dövlət Universitetində namizədlik dissertasiyasını müdafiə edib. 1960-cı ildən AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun Fəlsəfə və ictimai fikir tarixi şöbəsində çalışıb, uzun illər şöbənin müdiri olub. 1969-cu ildə "Hürufilik və onun Azərbaycanda nümayəndələri" mövzusunda doktorluq işini müdafiə edib.

Zümrüd Quluzadə İslam fəlsəfəsi, xüsusən də hürufilik cərəyanının fəlsəfi mahiyyətinin araşdırılması və ümumilikdə Azərbaycan fəlsəfə tarixinin tədqiqinə böyük töhfələr verib. O, Nizami, Nəimi, Nəsimi, Füzuli kimi mütəfəkkirlərin dərin fəlsəfi görüşlərini ilk tədqiq edən alimlərdəndir. 1996-cı ildən özünün təşəbbüsü ilə yaradılmış "Şərq fəlsəfəsi problemləri" beynəlxalq elmi-nəzəri jurnalının baş redaktoru olub. 2010-cu ildə onun təşəbbüsü ilə yaradılan www.journalorientalphilosophy.org internet saytı Şərq fəlsəfəsinə tədqiqatlarla bağlı zəngin elektron resursdur.

Zümrüd Quluzadənin elmi fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib. Alim 2015-ci ildə "Şöhrət" ordeninə layiq görülmüşdü. Prezident təqaüdçüsü idi.

Allah rəhmət eləsin.

# Azərbaycanın ilk qadın kinomexaniki Nailə Bədəlova

15 iyul 2010-cu il tarixdə kütləvi informasiya vasitələrində belə bir xəbər verilmişdi ki, Azərbaycanın ilk qadın kinomexaniki Nailə Bədəlovanın sənədləri, orden-medalları və başqa arxiv materialları Dövlət Film Fonduna təqdim edilib. Bundan 11 ildən artıq vaxt keçməsinə baxmayaraq, internet mediada Nailə Bədəlovanın adına ikinci dəfə təsadüf etmək mümkün deyildi.

Elektron poçt vasitəsilə Azərbaycan Dövlət Film Fonduna müraciət edərək orada Nailə Bədəlovaya aid hansı sənədlərin saxlanıldığını soruşduq. Bizə Nailə Bədəlovanın bir fotoşəkli, qısa tərcümeyi-halı və 2010-cu ildə onunla bağlı fonda daxil olmuş 8 sənədin siyahısı təqdim olundu. Həmin siyahıdan məlum olur ki, Azərbaycan Dövlət Film Fondunda Nailə Bədəlova ilə bağlı bu sənədlər var: Nailə Bədəlova haqqında məqalə dərc olunmuş bir jurnal və bir qəzet, təltif olunduğu 2 fəxri fərman və bir medalın vəsiqəsi, 1 fotoşəkli, kinomexanik vəsiqəsi və kinostudiyaya buraxılış vəsiqəsi.

Nailə Bədəlova haqqında məqalə dərc olunmuş bir jurnal və bir qəzet məqaləsi ilə tanış olmaq üçün Azərbaycan Milli Kitabxanasına sifariş göndərdik.



Bunlar 1967-ci ilin noyabr ayında "Təşviqatçı" jurnalında dərc olunmuş Rauf Əliyevin "Günəş və gözəllik" adlı məqaləsi və 20 may 1968-ci il tarixli "Bakı" qəzetində dərc olunmuş Mayıl Cəbrayılov və Böyükkişi Ziyadovun "Qanadlanan arzular" adlı məqaləsi idi. Azərbaycan Milli Kitabxanası operativ şəkildə onlayn sifarişimizi yerinə yetirdi. İstədiyimiz məqalələrlə tanış olduqdan sonra hesab etdik ki, Azərbaycanın ilk qadın kinomexaniki Nailə Bədəlovanın həyat və fəaliyyəti barədə yeni bir məqalənin yazılmasına ehtiyac var və bu işi, qısa da olsa, biz edə bilərik...

Nailə Bədəlova 8 mart 1913-cü il tarixdə Nuxada (indiki Şəki) anadan olub. 1939-cu ildə Bakıda kinomexaniklər kursunu bitirib.

17 aprel 1939-cu il tarixdən Bakıdakı "Bakkommuna" kinoteatrında təcrübəçi kimi əmək fəaliyyətinə başlayıb və 1 yanvar 1940-cı il tarixdən kinomexanik vəzifəsinə keçirilib.

1941–1945-ci illərdə Nuxa şəhərindəki "Yeni yol" kinoteatrında, Nuxa rayonunun Zəyzid, Kiş, Göynük kəndlərindəki kinoqurğularda filmlər nümayiş etdirib. 1945–1946-cı illərdə "Bakı" (indiki "Azərbaycanfilm") kinostudiyasında, 1948-ci ildə "Bakı" kinoteatrında, 1949–1972-ci illərdə paytaxtdakı "Nizami" kinoteatrında kinomexanik işləyib.

1946-cı ildə "Qafqazın müdafiəsinə görə", 1967-ci ildə "Əməkdə fərqlənməyə görə" medalı ilə, müxtəlif illərdə fəxri fərmanlarla təltif olunub. 27 may 2000-ci il tarixdə – 87 yaşında Bakıda vəfat edib.

Nailə Bədəlovanın həyat yoldaşı Salman Bədəlov Böyük Vətən müharibəsi iştirakçısı olub. O, tanınmış sənədli filmlər rejissoru Niyazi Bədəlovun (1909–1997) qardaşı idi.

Oğlu Fərid Bədəlov Azərbaycan Politexnik İnstitutunu bitirib, bir müddət Əfqanıstanda və İranda işləyib, lakin vaxtsız vəfat edib.

Qızı Sevil Bədəlova Bakı Rəssamlıq Məktəbini və Moskva Dövlət Universitetinin İncəsənət fakültəsini bitirib, müxtəlif illərdə Milli İncəsənət Muzeyində, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində işləyib, Qafqaz Universitetinin (indiki Bakı Mühəndislik Universiteti) professoru olub. 2010-cu ildə anasının bəzi sənədlərini Dövlət Film Fonduna o təqdim edib, amma təhvil-təslim aktında və KİV-də yayılmış məlumatlarda adı səhvən "Sevinc" kimi göstərilib. Hazırda Türkiyədə yaşayır və orada pedaqoji fəaliyyətlə məşğuldur.

**Aydın MƏMMƏDOV**
**M.F.Axundzadə adına Şəki Mədəniyyət Mərkəzinin əməkdaşı**

# Özümüzdən yazaq, özgələrə oxuyaq...

## Müharibə qəhrəmanlarımız bədii ədəbiyyatın mövzusuna çevrilirmi?

Müharibə mövzusu, onu layiqincə işıqlandırmaq, qəhrəmanların bədii obrazını yaratmaq ədəbiyyatımızın ən ağrılı yeridir, desək, inanırıq ki, kimlərinsə qəlbinə dəymiş olmarıq. Bu mənada ürəklənərək deməliyik ki, haqlı olaraq bir çoxumuz tez-tez "Ədəbiyyatımızda Qarabağ müharibəsindən bəhs edən bir sanballı nəsr, yaxud dram əsəri yoxdur" deyə giley edirik.

Əslində, zaman-zaman yazılan və bir növ məhəlli, məhdud ideya və mövzulu nümunələr var və biz onların bəşəri ideyalara söykənmədiyini, məhdud coğrafiyada oxucunu təsirləndirə bildiyini düşünüb üzərində dayanmırıq. Yəqin elə buna görədir ki, haqq savaşımızı ədəbiyyat, teatr, kino, musiqi dilinə hələ yetərincə çevirib yaya bilmirik. Bacarsaydıq, 30 il ərzində gördüyümüz iki qanlı müharibənin şanlı qəhrəmanlarla dolu salnaməsinin bədii obrazı, ədəbi simasını yaradar və dünyaya təqdim edərdik...

Söhbətin yönünü bir az da "Mən yazım, oxuyacaqlarmı" düşüncəsinə çevirsək, görərik ki, bəli, oxuyacaqlar. Çünki yaşanan tarix bədii təxəyyüldən mətnə keçəndə ədəbiyyat olur.

Bu günlərdə dünya ədəbiyyatında müharibə qəhrəmanlarının prototipləri ilə bağlı qısa araşdırma elədik və qarşımıza sizin də oxuyub bildiyiniz kifayət qədər məşhur nümunələr çıxdı. Sonra qanrılıb son 30 ilin ədəbiyyatına da baxmağa çalışdıq. İki müharibə arasında keçən təxmini üç onilliyin saysız qəhrəmanlarını gözlərimiz önündən keçirdik. Sonra tələm-tələsik həmin dövrü əhatə edən nümunələri sadalamağa başladıq. Məhz bu mövzunu əks etdirə bilən heç 30 əsərə rast gəlmədik. Təbii ki, burada söhbət irihəcmli nəsr əsərlərindən və dramaturji materiallardan gedir.

Dramaturgiyaya gəlsək, sırf Qarabağ müharibəsindən bəhs edən, daha doğrusu, müharibə obrazının prototipləri ilə bağlı üç-dörd pyes var. Amma onlar da zəif, sönük və bir az da statistik olduqlarından nə teatr səhnələrinə, nə də geniş oxucunun masasına yol tapa bilməyiblər. Birinci Qarabağ müharibəsi ilə bağlı irihəcmli əsərlərdən danışarkən Mövlud Süleymanlının "Ermənі adındakı hərflər", Elçinin "Bayraqdar", Aqil Abbasın "Dolu", Şərif Ağayarın "Haramı", Əlabbasın "Qaraqovaq çölləri" kimi roman və povestlər üzərində dayanmalı oluruq. Bu mənada özü də şəhid atası olan mərhum Xalq yazıçımız Sabir Əhmədlinin bu mövzuda həssas yanaşma ilə qələmə aldığı maraqlı, təsirli, bədii baxımdan keyfiyyətli nümunələri var və onlar ədəbiyyatşünaslar tərəfindən müxtəlif istiqamətlərdə mütəmadi müzakirə olunurlar.

Müharibənin real obrazlarına, hamımızın tanıdığı qəhrəmanlarının prototip kimi işlənilməsinə gəlincə, bu da çox az və səthidir. Birinci Qarabağ müharibəsindən bəhs edən belə əsərlərdən biri Ələmdar Quluzadənin "Alay komandiri" romanıdır ki, biz burada Azərbaycanın Milli Qəhrəmanı Şirin Mirzəyevin obrazını görürük. Milli Qəhrəman Koroğlu Rəhimovun keçdiyi döyüş yolu haqqında Abdulla Qurbaninin "Koroğlunun Ağdərə səfəri" və Əli Qurbaninin "Koroğlular uzaqdan gələn yolda" əsərləri də var. Nəsrlə nəzmin qarışığından yaranan bu əsərlərdə döyüşçünün qəhrəmanlıqlarından bəhs olunur. Əjdər Olun "Lo" romanında da 90-cı illərin tarixi və müharibə obrazları, qismən də olsa, keçir. Müəllif tarixi sənədli romanında dövrün siyasi və savaş qəhrəmanlarından da bəhs edir. Bu qəbildən daha bir neçə nümunə olsa da, biz onların heç birində Avropa ədəbiyyatında gördüyümüz bir obrazın romana çevrilişini izləyə bilmirik. Sadəcə, sənədli-xronikal materiallarla kifayətlənməli oluruq. Bu mənada Şərif Ağayarın 2016-cı ilin Aprel döyüşlərinin şəhidi, "Murov qartalı" kimi tanıdığımız Raquf Orucovun həyatından bəhs edən "Komandir", Mustafa Çəmənlinin Milli Qəhrəman Mübariz İbrahimovun həyat və döyüş yolundan bəhs edən "Mübariz" romanlarını qeyd edə bilərik. Siyahıya Azad Qaradərəlinin İkinci Qarabağ müharibəsi şəhidi Cəbrayıl Dövlətzadədən bəhs edən "Cəbrayıl əfsanəsi" və İlqar Kamilin Milli Qəhrəman Polad Həşimova həsr etdiyi "Polad necə bərkidi" adlı xatirələr toplusunu da əlavə edə bilərik. Əsas etibarilə publisistik düşüncələrin ön planda olduğu bu əsərlər İkinci Qarabağ müharibəsi haqqında da ümumi təsvirlərlə yadda qalır.

Bu qəbildən olan nümunələrdən biri də yaxın günlərdə işıq üzü görən "Dəmir yumruq dastanı"dır. Yazıçı Zahid Xəlilin nəzmlə nəsrin qarışığından ərsəyə gətirdiyi bu kitabında hər iki müharibənin qəhrəmanlarının adlarına rast gəlmək olar...

Əslində, bu siyahını bir az da uzatmaq olardı. Amma əsas qayəni əhatə edəcəkmi? Təbii ki, yox! Çünki biz, təəssüf ki, iki müharibədən çıxmış böyük bir nəslin, millətin əzmini, qəhrəmanlığını, ağrısını, darmadağın olmuş insanının taleyini təsirli və obrazlı təqdimatda hələ ki, görməmişik.

Hərçənd, yazıçılarımızın illər əvvəlki "Məğlubiyyətdən ədəbiyyat yaratmaq dəhşətlidir" kimi dramatik "bəhanə"lərinə də artıq yer yoxdur. Müzəffər Ali Baş Komandan və qalib Ordumuz ədəbiyyat adamları üçün ZƏFƏR adlı böyük bir mövzu verib. Qalır onu gerçək ədəbiyyat materialına çevirmək...

İkinci Qarabağ müharibəsi şəhidlərinin Anım Günündə mövzu ilə bağlı yeni ərsəyə gələn bədii nümunələri və çap məhsullarını da nəzərdən keçirdik.

Azərbaycan Yazıçılar Birliyi (AYB) tərəfindən çap olunan "Qarabağ dastanı, otuz ilin həsrəti – 44 günün Zəfəri" adlı kitab bu qəbildən dolğun və maraqlı topludur. Topluda tanınmış yazıçıların, şairlərin Qarabağa və işğaldan azad olunmuş torpaqlarımıza həm 30 illik həsrət zamanı, həm də böyük Qələbədən sonra həsr olunmuş əsərləri yer alır. Kitabda Qarabağla bağlı yazıçıların öz doğma bölgələri haqqında düşüncələrinə, xatirələrinə də yer verilib. Məsələn, Seyran Səxavət Füzulidən, Elçin Hüseynbəyli Cəbrayıldan, Qulu Ağsəs Ağdamdan, Şirindil Alışanlı Laçından yazıblar. Ən əsası, bu yazıların əksəriyyəti böyük Zəfərdən sonra qələmə alınıb. Kitabda son dövrdə yazılmış maraqlı məqalə və poeziya nümunələrini də oxumaq olar.

"44 fəsil. Payızda gələn bahar hekayələri" adlı hekayələr toplusu da maraqlı nümunələrdəndir. Topluda 44 günün möcüzələrindən, o möcüzələrin hekayələşmiş qəhrəmanlarından bəhs edilir. Burada 44 müəllifin 44 hekayəsi toplanıb. Əsərlərdə Vətən müharibəsinin ayrı-ayrı epizodlarının, şəhid, qazi və əsgər valideynlərinin, döyüşçülərin, əzizlərini Vətən uğrunda döyüşə yola salmış adamların hiss və həyəcanları əksini tapıb.

Topluda Xalq yazıçıları Elçin, Çingiz Abdullayev, Kamal Abdulla, yazıçılardan Günel Anarqızı, Cəlil Cavanşir, Alpay Azər, Arif Ərşad, Sevinc Nuruqızı və başqalarının hekayələri yer alır.

Qısa müşahidələrdən və son illərdə ərsəyə gələn nümunələrdən də göründüyü kimi, Birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən savaşımızla bağlı ədəbi nümunələr arasında öncüllüyü yenə poeziya və publisistika, nisbətən hekayə janrı təşkil edir. Ola bilər, yenə də irihəcmli roman və ya pyeslərin ərsəyə gəlməsi üçün yazıçılarımıza "uzun" zaman lazım olacaq. Hə, bax o vaxtadək də ya hər oxucu öz əsərini yazacaq, ya da ədəbiyyata marağı sosial şəbəkə paylaşımlarındakı bir para təsvir "şedevri"ndə ilişib qalacaq...

**H.NİZAMİQIZI**

**P.S.** *Mövzu ilə bağlı bir çox yazıçı və dramaturqlarımıza göndərdiyimiz sorğuların cavabları gəlib çıxmır ki, çıxmır.*

# Qarabağ ədəbi mühiti: tarix və müasirlik

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Anım Gününə həsr olunmuş "Qarabağ ədəbi mühiti: tarix və müasirlik" mövzusunda elmi konfrans keçirilib.

AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli tarixi Qələbəmizin əhəmiyyətindən danışaraq bildirib ki, ədəbiyyatşünaslarımız Qarabağ hadisələrini, Qarabağ uğrunda aparılan müharibəni, Vətən müharibəsinin dərslərini elmi müstəvidə təqdim edən tədqiqat işləri, monoqrafiyalar yazıblar.

Konfransda AMEA-nın müxbir üzvü Tehran Mustafayev "Qalibiyyət zamanı: çağdaş ədəbiyyatda diskursun dəyişməsi", professor Şirindil Alışanlı "Laçın: tarixi və bədii sözün yaddaşında", dosent Rahid Xəlilov "Vətən müharibəsi və ədəbiyyatda milli özünüdərk problemi" mövzularında məruzə ediblər. Aygün Bağırlı, Elçin Mehrəliyev, Mərziyyə Nəcəfova, İlham Məmmədli, Fəridə Vəliyeva, Bahar Məmmədova, Əlizadə Əsgərli də Qarabağ ədəbi mühitinə dair məruzələrlə çıxış ediblər.

## Nizami sözündən incilər

Nizami Gəncəvinin "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. "Xəmsə"yə daxil olan beş poema-məsnəvidə bütün zamanların ən humanist, ümumbəşəri idealları parlaq bədii əksini tapıb. "Nizami Gəncəvi İli" qüdrətli söz ustadının misilsiz xəzinə olan ədəbi irsinin təbliği, eyni zamanda tədqiq edilməsi və öyrənilməsi üçün yeni zəmindir.

"Nizami sözündən incilər"də dahi şairin möhtəşəm beşliyindən növbəti seçmələri təqdim edirik.

# Hər zaman, harda olsan – hünərin ovçusu ol...

*Könlündə lovğalığa deyil, hünərə ver yol,*
*Hər zaman, harda olsan – hünərin ovçusu ol.*

**("Sirlər xəzinəsi")**

*Oğrunun əlində olsa yüz dəhrə,*
*Bir qışqırsan qorxub yıxılar yerə.*

**("Xosrov və Şirin")**




*Əlini vurmasa oda bir nəfər.*
*Odun istisini necə hiss edər?*

**("Leyli və Məcnun")**

*Hər halda sən çalış, həyat əməkdir,*
*Cənnət kahıllığı nəyə gərəkdir?*
*Kim qayğı bəsləsə öz əməyinə,*
*Özgəyə pis baxsa, o pisdir yenə.*

**("Yeddi gözəl")**

*O qədər xəbərsiz yatma hər zaman*
*Ki, birdən sel gəlib aşar başından.*

**("İsgəndərnamə" – "İqbalnamə")**

*Aslanın böyrünə əl çəkmək üçün*
*Üstün olmalıdır aslana gücün.*

**("İsgəndərnamə" – "Şərəfnamə")**

# "Sən xalqımızın ləl-cəvahiratını toplayırsan"

## Əbülqasım Hüseynzadə ömrünü xalq yaradıcılığının öyrənilməsinə həsr edib

Dərin məna, yığcam fikir ifadə edən atalar sözlərimiz müdrik baba və nənələrimizin zəka və düşüncəsinin bəhrəsidir. Atalar sözlərimizi ilk dəfə 1899-cu ildə İrəvan şəhərində Məhəmməd Vəli Qəmərli adlı bir müəllim toplayıb və kitab halında çap etdirib. Ötən əsrin əvvəllərində atalar sözlərini ikinci dəfə sistemli şəkildə toplayan və araşdıranlardan biri də folklorşünas Əbülqasım Hüseynzadə olub.

Əbülqasım Nurməhəmməd oğlu Hüseynzadə 25 sentyabr 1890-cı ildə Bakı şəhərində dünyaya göz açıb. İlk təhsilini altısinifli şəhər məktəbində alır. Sonra qiyabi yolla təhsilini davam etdirir. Araşdırmalarda qeyd edilir ki, əmək fəaliyyətinə mühasib kimi başlayan Əbülqasım asudə vaxtlarında atalar sözlərimizi toplamaqla məşğul olub. Hələ məktəbli ikən saçaqlı konfetlərin üzərinə yazılan atalar sözləri, zərb-məsəllər, tapmacalar onun diqqətini çəkib. Məktəb yoldaşı ilə birlikdə konfet kağızlarını toplayıb. O, sonralar qələmə aldığı xatirələrində konfet fabrikinin sahibinə rəhmət oxuduğunu bildirib.

Əbülqasım Hüseynzadə 1910-cu ildə "Səadət" məktəbində hesabdar-katib vəzifəsində işləyərkən dahi bəstəkar Üzeyir Hacıbəyli ilə görüşür. Görkəmli musiqiçi onun atalar sözlərini topladığı və cəm etdiyi dəftərə baxır və bu nəcib işi yüksək dəyərləndirərək deyir: "Sən xalqımızın ləl-cəvahiratını toplayırsan".

Böyük bəstəkarın verdiyi dəyərdən həvəslənən Ə.Hüseynzadə bu işlə daha sistemli məşğul olmağa başlayır.

O, 1925-ci ildə Azərbaycan Dövlət Nəşriyyatında baş mühasib vəzifəsinə işə düzəlir. Bir gün Azərbaycan Ədəbiyyat Cəmiyyətinin sədri, şair-publisist Böyükağa Talıblı ilə görüşür. Ondan illər boyu topladığı atalar sözlərinin kitab halında çap olunmasını xahiş edir. Beləliklə, 1926-cı ildə iki minə yaxın atalar sözündən ibarət kitab "Bakı işçisi" nəşriyyatının mətbəəsində işıq üzü görür. Bunun ardınca ədəbiyyatşünas-tənqidçi Hənəfi Zeynallının tərtib etdiyi "Atalar sözü" kitabı da çap edilir. Həmin kitabın müqəddiməsində müəllif yazıb: "Mənə bu müqəddəs işdə kömək edənlərdən biri də Əbülqasım Hüseynzadə oldu. Onun topladığı atalar sözlərindən istifadə etdim".

1938-ci ildə ədəbiyyatşünas Məmməd Arif Dadaşzadənin redaktorluğu, görkəmli alim Həmid



Araslının müqəddiməsi ilə müəllifin ikinci kitabı çapdan çıxır. Onun cəfakeşliklə atalar sözlərini toplaması dövrün ədəbiyyatşünas alimləri tərəfindən yüksək dəyərləndirilir. Ona məsləhət görürlər ki, ölkəmizi qarış-qarış gəzsin. Ə.Hüseynzadə də Azərbaycanı kəndbəkənd, şəhərbəşəhər dolaşır, atalar sözləri ilə bərabər tapmaca və nağılları da toplayaraq kitabça şəklində nəşr etdirir. Uşaqlar üçün hazırladığı "Tülkü və xoruz", "Tapmacalar" əsərləri işıq üzü görür.

1949-cu ildə çap etdirdiyi növbəti "Atalar sözü" kitabı bir sıra özəlliklərinə görə əvvəlkilərdən fərqlənir. Kitabda atalar sözləri əlifba sırası ilə düzülür, sonda isə müfəssəl mövzular göstəricisi verilir. Kitabı çapa yazıçı Mikayıl Rzaquluzadə hazırlayır və toplu elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. İldən-ilə, nəşrdən-nəşrə oxucuya təqdim etdiyi toplunun yeniləşməsinə, zənginləşməsinə, təkmilləşməsinə çalışır. 1956-cı ildə "Atalar sözü" kitabının dördüncü nəşri işıq üzü görür. Sonrakı illərdə bu kitab rus və Ukrayna dillərində də çap edilir...

Ə.Hüseynzadənin "Rəvayətlər" kitabı 1974-cü ildə "Azərnəşr"də çapdan çıxır. On il sonra "Maarif" nəşriyyatının təqdim etdiyi "Müxtəsər rusca-azərbaycanca atalar sözü lüğəti" onun yaradıcılığının yeni bir cəhətini üzə çıxarır. Ömrünün axırınadək hikmət dəryasından ayrılmayan Ə.Hüseynzadənin sonuncu "Atalar sözü" kitabı 1985-ci ildə 40 min nüsxə ilə işıq üzü görüb. O, bir folklor bilicisi kimi bəzi atalar sözü və məsəllərin izahını da verib, onların yaranma səbəblərini araşdırıb.

Əməyi yüksək qiymətləndirilən tədqiqatçı 1981-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. 2 sentyabr 1988-ci ildə, 98 yaşında vəfat edib.

**S.FƏRƏCOV**

# Yaradıcı qadınların sərgisi davam edir

Azərbaycan Rəssamlar İttifaqının (ARİ) V.Səmədova adına sərgi salonunda Yaradıcı Qadınlar Assosiasiyası üzvlərinin növbəti sərgisi təşkil olunub. Sentyabrın 24-də açılan sərgi sənətsevərlər tərəfindən böyük maraqla qarşılanıb.

Tədbiri ARİ-nin sədri, Xalq rəssamı Fərhad Xəlilov açaraq qeyd edib ki, pandemiyanın tüğyan etdiyi çətin dövrdə belə bir sərginin açılması əlamətdar hadisədir. Sərgi sanki bizə "həyat davam edir, həyat gözəldir və sonsuzdur" deyir. Diqqətə çatdırılıb ki, ARİ-nin üzvü, rəssam-keramist, sənətşünas, xoreoqraf Afaq Hüseynovanın rəhbərlik etdiyi assosiasiyanın sərgiləri artıq ənənə halını alıb: "Afaq xanım bu gün eyni zamanda yubileyini qeyd edir və sərgidə onun keramika kompozisiyaları, məşhur nar təsvirləri, naxışlı qabları, dekorativ heykəlləri təqdim olunur. Onlar heyrətamiz şəkildə ahəngdardır, böyük zövq və təxəyyül ilə yaradılıb".

Sərgidə bərpaçı-rəssam Gülşən Hacıyevanın dekorativ kompozisiyaları da diqqəti cəlb edir. Rəssam dəridən, parçadan, digər materiallardan istifadə edərək rəngarəng ritmik variasiyalar, valehedici dekorlar yaradıb.

Fakturasına görə müxtəlif parçaların rənglərindən yaradılan quramanın milli texnikası haqqında danışsaq, bu sahədə Xalidə Nəsirovanın yaradıcılığını xüsusi qeyd edə bilərik. Onun "İmdad" pannosunun fəlsəfi baxımdan dərk olunması da böyük maraq kəsb edir.

Parça üzərində naxış çəkmək sənəti olan batika Azərbaycanın dekorativ-tətbiqi sənəti ilə yaxşı səsləşir. Bu cür həddən artıq gözəl, mürəkkəb və qeyri-adi texnikanı Tatyana Ağababayeva, digər rəssamlar böyük uğurla təcrübədən keçiriblər. Tatyana Ağababayevanın ipək kompozisiyaları şəklin itiliyi, mürəkkəb texnikası, koloriti ilə diqqəti cəlb edir. Qeyd etmək istərdik ki, "Yağışın alleqoriyası" pannosu göy-



yaşıl tonların harmoniyalı axıcılığı ilə poetik əhval-ruhiyyəni nümayiş etdirir. Rəssam uzun illər ərzində batika sahəsində çalışır və bu sahədə böyük nailiyyətlər əldə edib.

Assosiasiyanın rəssamları ardıcıl olaraq qobelen, xalça, tikmə sahəsində çalışır, milli kostyumlarda dekorativ kuklalar, suvenirlər yaradırlar.

Anaxanım Aslanovanın, Zemfira Allahverdiyevanın, Nurlana Məmmədova və başqalarının parça kompozisiyalarını buna misal göstərmək olar. Sərgidə Dilarə Səfərəliyeva qarışıq texnikada yaratdığı dekorativ xarakterli miniatür kompozisiyalarını təqdim edir. Onun qrafika texnikasında "Tovuzquşu" kompozisiyası yaddaqalandır.

Sərginin iştirakçılarından Xatirə Həsənzadənin qrafika işlərini xüsusi olaraq qeyd etmək lazımdır. Onun qrafika işləri tamaşaçını özünə cəlb edir. Rəssam əsərlərini qara tuşla çəkir. "Həyat" və "Əbədiyyət" kompozisiyaları buna misaldır.

Sərginin bütün iştirakçıları tamaşaçını sevindirməyə, onun diqqətini cəlb etməyə, sadəcə olaraq, gözəlliyi paylaşmağa çalışıblar.

**Zina MİRZƏZADƏ**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının magistrantı**

## Xatirə təqvimi — 2–5 oktyabr

### Azərbaycan

**2 oktyabr 1913** – Əməkdar incəsənət xadimi, dirijor Çingiz Zülfüqar oğlu Hacıbəyov (1913 – 18.1.1971) anadan olub.

**2 oktyabr 1915** – Məhəmməd Əmin Rəsulzadə tərəfindən əsası qoyulan "Açıq söz" qəzetinin ilk sayı çapdan çıxıb. 1918-ci ilədək nəşr olunub.

**2 oktyabr 1923** – Əməkdar mədəniyyət işçisi Turan Cavid (Turan Hüseyn Cavid qızı Rasizadə; 1923 – 12.9.2004) anadan olub. C.Cabbarlı adına Dövlət Teatr Muzeyinin, Hüseyn Cavidin Bakıdakı ev-muzeyinin direktoru işləyib.

**2 oktyabr 1924** – Azərbaycanda fəhlə və kəndli müxbirlərin birinci qurultayı keçirilib.

**2 oktyabr 1981** – Xalq artisti Həsənağa Dərya oğlu Salayev (5.12.1921 – 1981) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb. "Görüş", "Onu bağışlamaq olarmı?", "Aygün" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**3 oktyabr 1875** – Yazıçı-dramaturq Süleyman Sani Rzaqulu bəy oğlu Axundov (1875-1939) Şuşada anadan olub. Yazıçının "Qorxulu nağıllar" toplusu Azərbaycan uşaq ədəbiyyatının klassikası sayılır. "Laçın yuvası", "Eşq və intiqam", "Tamahkar" və s. pyeslərin müəllifidir.

**3 oktyabr 1887** – Əməkdar artist Ələkbər Hüseyn oğlu Hüseynzadə (1887 – 14.11.1967) anadan olub. "Arşın mal alan" (1945) filmində Soltan bəy obrazına görə Dövlət mükafatına layiq görülüb. Bu rolu Musiqili Komediya Teatrında 600 dəfə ifa edib. "Qara daşlar", "Ögey ana" və s. filmlərdə çəkilib.

**3 oktyabr 1996** – Xalq yazıçısı İlyas Məhəmməd oğlu Əfəndiyev (26.5.1914 – 1996) vəfat edib. "Söyüdlü arx", "Körpüsalanlar", "Geriyə baxma, qoca" və s. romanların, Azərbaycan dramaturgiyasında yeni mərhələ təşkil edən pyeslərin müəllifidir.

**4 oktyabr 1923** – Teatr və kino aktyoru, Azərbaycanın Xalq artisti Anatoli Solomonoviç Falkoviç (1923-1994) Bakıda doğulub. Dövlət Rus Dram Teatrında çalışıb, respublika Dövlət mükafatına layiq görülüb. "Qatır Məmməd", "Bakıda küləklər əsir" və s. filmlərdə çəkilib.

**4 oktyabr 1924** – Opera müğənnisi, Əməkdar artist Sona Şahnəzər qızı Aslanova (1924-2011) anadan olub. Opera və operettalarda (Nigar – "Koroğlu", Gülçöhrə – "Arşın mal alan") çıxış edib. "Bizim Cəbiş müəllim", "Görüş" və s. filmlərdə çəkilib. Ömrünün son illərini ABŞ-da yaşayıb və orada dünyasını dəyişib.

**4 oktyabr 1957** – Tanınmış balaban ifaçısı Məhərrəm Ağabala oğlu Mövsümov (1916-1957) vəfat edib.

**4 oktyabr 2000** – Görkəmli bəstəkar, Xalq artisti Tofiq Ələkbər oğlu Quliyev (7.11.1917 – 2000) vəfat edib. Populyar mahnıların, filmlərə musiqilərin müəllifidir. Azərbaycan Bəstəkarlar İttifaqının sədri olub.

**4 oktyabr 2006** – Xalq artisti Hacıbaba Ağarza oğlu Bağırov (12.6.1933 – 2006) vəfat edib. 1962-ci ildən Musiqili Komediya Teatrında çalışıb, 1996-2006-cı illərdə teatra rəhbərlik edib. Filmlərdə çəkilib.

**4 oktyabr 2016** – Tanınmış teatr rejissoru Yusif Məmmədağa oğlu Əkbərov (2.9.1949 – 2016) vəfat edib. Sumqayıt Dövlət Dram, Musiqili Komediya teatrlarında işləyib.

**5 oktyabr 1918** – Xalq artisti Qalina Borisovna Koltunova (1918-1994) Bakıda doğulub. Azərbaycan Dövlət Rus Dram Teatrının aktrisası olub.

**5 oktyabr 1928** – Tanınmış ədəbiyyatşünas alim, yazıçı Məsud Əlioğlu (Vəliyev; 1928-1973) Qubadlı rayonunun Mahmudlu kəndində anadan olub.

**5 oktyabr 1935** – Görkəmli bəstəkar, Xalq artisti, professor Xəyyam Hadı oğlu Mirzəzadə (1935 – 30.7.2018) Bakıda anadan olub. "Ağlar və qaralar" baletinin, simfoniyaların, mahnıların müəllifidir. 30-dan çox filmə ("Bizim küçə", "Yeddi oğul istərəm", "Arxadan vurulan zərbə" və s.), teatr tamaşalarına musiqi yazıb.

**5 oktyabr 1955** – Əməkdar artist Simuzər Məmmədqulu qızı Namazova (1955 – 1.7.1996) Ağdam rayonunun Muğanlı kəndində doğulub. Ağdam və Gəncə teatrlarında çalışıb.

**5 oktyabr 1961** – Əməkdar artist Əlihüseyn Əbdülrəhim oğlu Qafarlı (15.3.1911 – 1961) vəfat edib. Gəncə Dram, Musiqili Komediya teatrlarında çalışıb.

**5 oktyabr 2002** – Əməkdar artist, tanınmış kamança ifaçısı Ədalət Səfərəli oğlu Vəzirov (27.4.1951 – 2002) vəfat edib.

### Dünya

**2 oktyabr 1832** – İngilis etnoqrafı və yazıçısı Eduard Bernett Teylor (Edward Burnett Tylor; 1832-1917) anadan olub.

**2 oktyabr 1869** – Hindistanda milli azadlıq hərəkatının ideoloqu, filosof Mahatma Qandi (Mohandas Karamchand Gandhi; 1869-1948) anadan olub.

**3 oktyabr 1895** – Rus şairi Sergey Yesenin (1895 - 27.12.1925) anadan olub. 1924-1925-ci illərdə Bakıda yaşayıb. Burada 40-dək şeirini yerli mətbuatda dərc etdirib. Mərdəkanda şairin xatirə muzeyi var.

**3 oktyabr 1897** – Fransız şairi, ədəbiyyatda sürrealizmin banilərindən Lui Araqon (Alouis Aragon – Louis-Marie Andrieux; 1897-1982) anadan olub.

**4 oktyabr 1720** – İtalyan arxeoloqu, rəssam və memar Covanni Batista Piranezi (Giovanni Battista Piranesi; 1720-1778) anadan olub.

**5 oktyabr 1713** – Fransız mütəfəkkiri, maarifçi, dramaturq Deni Didro (Denis Diderot; 1713-1784) anadan olub. Fransız "Ensiklopediya"sının ("İzahlı elm, sənət və peşə lüğəti") redaktoru və müəlliflərindən biri olub.

**5 oktyabr 1936** – Çex yazıçı-dramaturqu, dövlət xadimi Vatslav Havel (Vaclav Havel; 1936-2011) anadan olub. Pyesləri: "Həyat irəlidədir", "Bağda bayram", "Sui-qəsdçilər" və s. Çex Respublikasının ilk prezidenti (1993-2003) olub.

**Hazırladı: Vüqar ORXAN**



# Xalqları birləşdirən mədəniyyət

Xəbər verdiyimiz kimi, 22-25 sentyabr tarixində Qırğızıstanın paytaxtı Bişkekdə Dünya Xalqlarının Eposlar Festivalı keçirilib. 6-cı dəfə təşkil olunan festival Qırğız Respublikasının müstəqilliyinin 30-cu ildönümü və qırğız şairi, akın və dastançı Toqolok Moldonun 160 illiyinə həsr olunub.

Əsası 2006-cı ildə qoyulmuş festivalın məqsədi xalqların mədəni müxtəlifliyini və irsini qorumaq, epik irsi qlobal səviyyədə təbliğ etmək, dünya xalqlarının epik irsinin öyrənilməsi, tədqiqi və təşviqi ilə məşğul olan alim və tədqiqatçıları bir araya gətirməkdir.

Festival çərçivəsində "Dünya mədəniyyətində "Manas" dastanı" adlı dəyirmi masa keçirilib. Qırğız xalqının ən əhəmiyyətli dastan nümunəsi olan "Manas" haqqında, onun qırğız mədəniyyətində rolu, tərcümələrinin vəziyyəti barədə məruzələr dinlənilib.

Həmçinin 20 ölkədən 38 alimin iştirakı ilə "Dünya xalqlarının epik ənənələri: mifoloji semantikanın və tipologiyanın öyrənilməsi aspektləri" adlı beynəlxalq elmi-praktik simpozium təşkil edilib.

Simpoziumda Azərbaycandan olan nümayəndə, "Turan" İstedadlar Birliyi İdarə heyətinin sədri, kulturoloq-yaponşünas Əbülfəz Babazadə "Yaponiyanın qədim xalqlarının etnomiflərinin genezisindəki türk faktoru" mövzusunda məruzə ilə çıxış edib. Məruzə simpozium iştirakçıları tərəfindən maraqla qarşılanıb. Ə.Babazadə məruzəsində türkologiya və yaponşünaslıq sahəsində araşdırmalarından bəhs edərək simpozium iştirakçılarının diqqətini kiçik xalqların mənəvi-mədəni irsinin qorunması və hərtərəfli öyrənilməsinin vacibliyinə yönəldib.

Məruzəçi tədbiri işıqlandıran yerli mediaya müsahibəsində artıq Qırğızıstanın bredinə çevrilmiş Dünya Xalqlarının Eposlar Festivalının əhəmiyyətini vurğulayıb. Bildirib ki, belə geniş bir platformada müzakirə olunan epik irs, dünya xalqlarının dastanları və digər dəyərlər bir çox humanitar problemlərin aradan qaldırılmasına kömək edə bilər.

Simpoziumun son günündə Azərbaycan nümayəndəsi epik irsin qorunması ilə bağlı vəziyyətin qənaətbəxş olmadığı yerlərdə aralıq dəyirmi masaların keçirilməsi təklifini irəli sürüb və bu müddəa iştirakçılar tərəfindən dəstəklənərək simpoziumun yekun qətnaməsinə salınıb.

Festivalın "Mədəni müxtəliflik paradı" adlı tədbirində iştirakçılar boğaz oxumağı, xalq nağıllarını dinləyib, Şərq xalqlarının milli mətbəxindən nümunələrlə tanış olublar. Eyni zamanda "Qırğız köçü" etnoqrafik kəndində dizaynerlər arasında müsabiqələr keçirilib.

Bişkek yaxınlığında salınmış etnoşəhərciklərin birində isə festival qonaqlarının adına təşkil olunmuş təntənəli şam yeməyi zamanı hər nümayəndə öz ölkəsinin musiqi kompozisiyasını təqdim edib. Ə.Babazadə görkəmli bəstəkarımız C.Cahangirovun Molla Pənah Vaqifin sözlərinə bəstələdiyi "Durnalar" mahnısını akapella şəklində ifa edib.

# Özbəkistanda "Azərbaycan kinosu günləri"

*əvvəli səh. 1-də*

R.Həsənov əmin olduğunu bildirib ki, kinematoqrafçılarımız bundan sonra daha da yaxından əməkdaşlıq edəcək, birgə yeni-yeni filmlər yaradacaq. Qeyd edib, "İpək Yolunun incisi" festivalı çərçivəsində Azərbaycan filmləri Daşkənd, Xivə və Nukus şəhərlərində göstəriləcək.

Sonra rejissor Orman Əliyevin 44 günlük Vətən müharibəsindən bəhs edən "Biz" sənədli filmi nümayiş olunub.

Qeyd edək ki, Azərbaycan nümayəndə heyəti festivalın açılış mərasimində də içtirak edib. Mərasimdə Özbəkistan Baş nazirinin müavini, turizm və idman naziri Aziz Abduhakimov Prezident Şavkat Mirziyoyevin iştirakçılara ünvanlanan təbrik məktubunu oxuyub.




Tədbirdə çıxış edən Rüfət Həsənov belə genişmiqyaslı festivalın təşkilinə və Azərbaycan nümayəndə heyətinin festivala dəvət edilməsinə görə Özbəkistana minnətdarlığını bildirib. Şöbə müdiri Daşkənd festivalının dünyanın nüfuzlu kinematoqrafçılarını bir araya topladığını məmnunluqla qeyd edib. O, Azərbaycan kinematoqrafçılarının fəaliyyəti haqqında söz açıb və festivalın işinə uğurlar arzulayıb.

Qeyd etdiyimiz kimi, "İpək Yolu incisi" adı ilə dirçələn Daşkənd kinofestivalı ölkəmiz üçün xüsusilə əlamətdardır. Festival çərçivəsində Daşkənd, Xivə və Nukus şəhərlərində "Azərbaycan filmləri həftəsi" də keçirilir. Nümayiş olunacaq ekran əsərlərinin sırasına İsmayıl Səfərəlinin "Balıqçının qızı", Əli-Səttar Quliyevin "Olimpiya", Kseniya Laqutinanın "Fəridə", Orman Əliyevin "Biz", Fariz Əhmədovun "Axırıncı", Murad Hüseynovun "Vəhşi durnaların vaxtı", Murad Hüseynov və Səddam Mehdiyevin "İki yol" filmləri daxildir.

Daşkənd festivalında fəxri qonaq kimi dünyanın məşhur aktyorları və rejissorları – Stiven Siqal, Mitxun Çakraborti, Timur Bekmambetov, Pavel Priluçnı, Lyuk Besson, Nikita Mixalkov və digərləri iştirak edir.

**Lalə AZƏRİ**

## Türk filmləri Daşkənd festivalında tamaşaçılarla görüşür

Sentyabrın 28-də başlayan Daşkənd Beynəlxalq Film Festivalında Türkiyə kinosuna da geniş yer ayrılıb. Müxtəlif ölkələrin kino günlərinin təşkil olunduğu festival çərçivəsində Türkiyə xüsusi bölməsinin də geniş proqramı var.

Türkiyənin Mədəniyyət və Turizm Nazirliyindən verilən məlumata görə, festival günlərində Daşkənd, Səmərqənd, Buxara və Xivə şəhərlərində Nuri Bilge Ceylanın "Ahlat ağacı" və Semih Kaplanoğlunun "Sədaqətin mənşəyi" də daxil olmaqla ümumilikdə 11 türk filmi nümayiş olunacaq.

Festivalın Türkiyə xüsusi bölməsi Mədəniyyət və Turizm Nazirliyi, Türkiyənin Daşkənddəki Səfirliyi və Yerli Düşüncə Dərnəyi tərəfindən hazırlanıb. Film nümayişləri ilə yanaşı Türkiyə ilə Özbəkistan arasında kino sahəsində ortaq layihələr və əməkdaşlıqla bağlı görüşlər də keçiriləcək.

Festivala Türkiyədən Nuri Bilge Ceylan, Reis Çelik, Mahmut Fazıl Coşkun, Ercan Kesal, Oktay Kaynarca, Melisa Aslı Pamuk, Erkan Petekkaya, Nazan Kesal, Filiz Ahmet, Erkan Kolçak Köstendil və Dilan Çiçek Deniz kimi tanınmış rejissorlar və aktyorlar qatılıb.

**Mehparə SULTANOVA**
**Ankara**

# "Azərbaycan ansamblı Ceraş səmasına işıq saçdı"

## Dövlət Rəqs Ansamblı İordaniyada festivalda çıxış edib



İordaniyanın qədim Ceraş şəhərində 35-ci Beynəlxalq Mədəniyyət və İncəsənət Festivalı (Jerash Festival for Culture and Arts) keçirilir. Sentyabrın 22-dən oktyabrın 2-dək davam edəcək festivalda ərəb dünyasından savayı, Yunanıstan, Meksika, Cənubi Koreya kimi ölkələrlə yanaşı Azərbaycan da təmsil olunur.

Festivalda iştirak edən Azərbaycan Dövlət Rəqs Ansamblı Ceraş şəhərinin mərkəzi meydanında rəngarəng proqram təqdim edib. Xalq artisti Rüfət Xəlilzadənin başçılıq etdiyi ansambl "Qarabağ", "Ağ çiçək", "Qaytağı", "Sarı gəlin" və s. milli rəqslərimizi təqdim edib. Konsert böyük maraqla və alqışlarla qarşılanıb.

İordaniya mətbuatı azərbaycanlı incəsənət ustalarının konsertinə xüsusi diqqət ayırıb. "Orobanews" nəşrində dərc edilmiş "Azərbaycan ansamblı Ceraş səmasına işıq saçdı" sərlövhəli məqalədə qeyd olunub ki, azərbaycanlı incəsənət ustaları mahir ifaları ilə iordaniyalıları və festivalda iştirak edən ərəb ölkələrinin təmsilçilərini heyran qoyublar.

"Əl Ray" qəzetindəki məqalədə isə Azərbaycan Dövlət Rəqs Ansamblının konserti yüksək incəsənət nümunəsi və günün əsas mədəniyyət hadisəsi kimi təqdim edilib. Ölkəmizin İordaniyadakı səfiri Eldar Səlimovun nəşrə müsahibəsində qeyd olunan "Ceraş festivalı qədim sivilizasiyanın yaşadılması örnəyidir" sözlərini vurğulayan müəllif yazıb ki, azərbaycanlı diplomat iki dost ölkənin incəsənət kollektivlərinin qarşılıqlı səfərlərinin təşkil ediləcəyini deyib. Məqalədə diqqətə çatdırılıb ki, Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil olunan konsert İordaniya və Azərbaycan xalqları arasında mədəni əlaqələrə daha bir töhfə olub.

Qeyd edək ki, festivalın proqramına müxtəlif ölkələrdən 70-dən artıq müğənni və folklor qruplarının çıxışları daxildir. Bundan başqa, Yaxın Şərqin tanınmış şair və yazıçılarının əsərlərindən ibarət ədəbiyyat və poeziya axşamları da təşkil olunur.

## Bondiana silsiləsindən 25-ci filmin ilk nümayişi keçirilib




Ceyms Bond haqqında çəkilən silsilə filmlərin 25-ci seriyasının dünya premyerası sentyabrın 29-da Londonda keçirilib.

"Ölmək vaxtı deyil" adlı filmin nümayişi Albert-hollda təşkil olunub.

Nümayişdən əvvəl filmin rejissoru Keri Fukunaqa, prodüserlər Maykl Vilson, Barbara Brokkoli, baş rolun ifaçısı Deniel Kreyq və Bondun sevgilisi rolunu oynayan fransalı aktrisa Lea Seydu qırmızı xalı üzərindən keçiblər. Tədbirin fəxri qonaqları arasında İngiltərə kral ailəsinin üzvləri – Uels şahzadəsi Çarlz və onun həyat yoldaşı Kamilla, həmçinin Kembric hersoqları Vilyam və Keyt olublar.

Qeyd edək ki, son 15 ildə Bondiana silsiləsindən filmlərdə baş rolu oynayan ingilis aktyor Deniel Kreyq ötən həftə "Britaniya Dəniz Qüvvələrinin Komandanı" fəxri adına layiq görülüb.

**CAVİD**

## Hilal Baydarovun "Durna çırağı"nın dünya premyerası Tokioda olacaq

*əvvəli səh. 1-də*

Ssenari müəllifi Hilal Baydarov olan "Durna çırağı" filmində Orxan İskəndərli, Elşən Abbasov, Hüseyn Nəsirov, Rəna Əsgərova, Aytəkin Mirişova, Məryəm Nağıyeva, Nigar İsayeva, Səda Həsənova, Kamran Hüseynov rol alıblar. Filmin bəstəkarı Kənan Rüstəmlidir.

H.Baydarov kino dərslərini macar rejissor Bela Tarrdan alıb. Onun debüt filmi – "Adsız yüksəkliklər"in premyerası 2018-ci ildə Monreal kinofestivalında baş tutub. Azərbaycanlı rejissor həmin il Sarayevo kinofestivalında "Ad günü" filmi ilə iştirak edərək "Docu Talent" mükafatına layiq görülüb.

2020-ci ildə Hilal Baydarovun "Səpələnmiş ölümlər arasında" filmi Avropanın üç ən nüfuzlu kino müsabiqəsindən biri olan Venesiya Beynəlxalq Film Festivalında nümayiş olunub. Rejissorun "Xurmalar yetişən vaxt" filmi də bir sıra festivallarda uğur qazanıb, 2019-cu ildə 25-




ci Sarayevo Film Festivalında "Ən yaxşı sənədli film" nominasiyasında qalib olub.

Qeyd edək ki, "Durna çırağı" Tokio Beynəlxalq Film Festivalında təqdim edilən ikinci Azərbaycan filmi olacaq. Bundan əvvəl, 2014-cü ildə rejissor Elçin Musaoğlunun Qarabağ müharibəsindən bəhs edən "Nabat" filmi həmin festivalın iştirakçısı olub.

## Ölkəmizin turizm imkanları Rusiyanın səyahət platformasında

Azərbaycan Turizm Bürosu Rusiyanın ən iri səyahət platformalarından biri olan "travelask.ru" ilə əməkdaşlığa başlayıb. Saytda Azərbaycanın 5 turizm marşrutu haqqında geniş məlumat yerləşdirilib.

Məlumatlarda qastronomiya, sağlamlıq və rekreasiya, mədəni marşrutlar, eləcə də paytaxt Bakı üzrə marşrut oxucuların diqqətinə çatdırılır.

"Azərbaycanın 9 təbii möcüzəsi" adlı beşinci marşrut isə mövcud çimərliklər, palçıq vulkanları, dağ-xizək kurortları, milli parklar, hayking turları və digər təbii resurslar əsasında inkişaf etdirilmiş turizm təkliflərini, eləcə də işğaldan azad olunmuş Qarabağ regionunun zəngin təbii sərvətlərini geniş şəkildə təqdim edir.




Bundan əlavə, "travelask.ru" saytında rusiyalı turistlər üçün müsabiqə elan olunub. Müsabiqə saytda yerləşdirilmiş turizm marşrutları əsasında tərtib edilmiş sorğu şəklində aparılır. Sorğunun nəticəsinə uyğun olaraq təklif edilən turizm turunu "Facebook" və ya "Vkontakte" sosial şəbəkəsində paylaşan istifadəçilər arasında təsadüfi seçim əsasında müəyyənləşən 2 şəxsə Azərbaycana səyahət turu hədiyyə olunur.

2015-ci ildən istifadəyə verilmiş "travelask.ru" saytının aylıq unikal istifadəçi sayı 7 milyona çatır. Müxtəlif turizm destinasiyaları haqqında mütəmadi olaraq səyahət bələdçisi hazırlayan sayt aviabiletlər, hotel, tur paketləri və turistik səfərlərin onlayn sifarişi üçün 1000-dən çox xidmət təminatçısının ən sərfəli təkliflərini bir araya gətirir.

Qeyd edək ki, Azərbaycan Turizm Bürosu bundan əvvəl beynəlxalq platformalar olan "Wego", "Expedia" və "Aviasales" ilə əməkdaşlığa başlayıb.

## Vyanada bəstəkarlarımızın əsərləri səslənib

Avstriya paytaxtındakı Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) dahi bəstəkar, Azərbaycan klassik musiqisinin banisi Üzeyir Hacıbəylinin anadan olmasının ildönümü və Milli Musiqi Günü münasibətilə klassik musiqi axşamı keçirilib. Konsert Azərbaycanın ərazi bütövlüyü uğrunda canını fəda edən Vətən övladlarının xatirəsinə ithaf olunub.



Konsertdən öncə AMM-in direktoru Leyla Qasımova, ölkəmizin Avstriyadakı səfiri Rövşən Sadıqbəyli, Azərbaycan xarici işlər nazirinin müavini Fariz Rzayev və Milli Məclisin üzvü Tahir Mirkişili çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra dahi Üzeyirin vətənində, Azərbaycan musiqisinin beşiyi Şuşada yenidən Azərbaycan musiqisi səslənir, festivallar keçirilir. Azərbaycan xalqı bu il Milli Musiqi Gününü ilk dəfə tamamilə yeni şəraitdə bayram edib. Vyanada Azərbaycanın Milli Musiqi Gününə həsr olunmuş konsert proqramı da torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş qəhrəmanların xatirəsinə ehtiramın təcəssümüdür. Vurğulanıb ki, Azərbaycanın işğaldan azad olan və bərpa edilən Qarabağ torpağı yenidən musiqi və mədəniyyət beşiyinə çevriləcək.

Konsertdə Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət proqram təqdim edilib. Avstriyada yaşayan və təhsil alan gənc azərbaycanlı musiqiçilər və onların həmkarları Jalə Rəsulova (fortepiano), Karen Danqer-Manafzadə (soprano), Abuzər Manafzadə (fortepiano), Fərid Feyzullayev (violin) Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Qara Qarayev, Səid Rüstəmov, Xəyyam Mirzəzadə, Müslüm Maqomayev, Asəf Zeynallı və digər bəstəkarların əsərlərini ifa ediblər. Fərid Feyzullayev (violin) və Filip Henrinin (gitara) təqdimatında "Sarı gəlin" xalq mahnısı tamaşaçılar tərəfindən böyük maraq və alqışla qarşılanıb.

## Beynəlxalq Türk Akademiyasından "Yunus Əmrə İli"nə töhfə

Qazaxıstanın Türküstan şəhərində Beynəlxalq Türk Akademiyası, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop və Qazaxıstan Parlamentinin sədri Nurlan Niqmatullinin iştirakı ilə Yunus Əmrənin türk və qazax dillərində çap olunmuş "Seçilmiş şeirlər" kitabının təqdimatı keçirilib.



Mərasimdə Beynəlxalq Türk Akademiyasının prezidenti Darhan Kıdıralı, TÜRKPA-nın baş katibi Altınbek Mamayusupov, Türküstan vilayəti akimi (qubernatoru) Umirzak Şökeyev, Qazaxıstan və Türkiyədən deputatlar iştirak ediblər.

Beynəlxalq Türk Akademiyası tərəfindən "Yunus Əmrə və Türk dili İli" çərçivəsində hazırlanan kitabda mütəfəkkir şairin şeirlərinin daha əvvəl nəşr olunmamış yeni tərcümələri yer alıb.

Qeyd edək ki, bu il Yunus Əmrənin vəfatının 700-cü ildönümüdür. Bu münasibətlə Türkiyədə 2021-ci il "Yunus Əmrə və Türk dili İli" elan edilib. Yunus Əmrənin vəfatının 700 illiyi UNESCO-nun yubileylər proqramına da daxil edilib.

## Avropa İttifaqı nümayəndəliyinin sərgisi

Dənizkənarı Milli Parkda Avropa İttifaqının (Aİ) Azərbaycandakı Nümayəndəliyi "Avropa İttifaqı Azərbaycan üçün" (EU4Azerbaijan) adlı fotosərgi təşkil edib.



Sərgi açıq havada "Park Bulvar" ticarət mərkəzinin yanındakı qalereyada nümayiş etdirilir. Sərginin məqsədi Aİ-nin Azərbaycandakı fəaliyyəti və həyata keçirilən layihələr barədə məlumatlandırmanı artırmaqdır.

Sərgidə nümayiş olunan 100-dən çox fotoşəkildə Avropa İttifaqının müxtəlif illərdə Azərbaycanda kənd yerləri və regionların inkişafı, ailə biznesi, inklüziv təhsil, qadın sahibkarlığı və s. kimi sahələrdə həyata keçirdiyi layihələr, müxtəlif növ mədəniyyət tədbirləri, həmçinin bu layihələrdən faydalanmış insanların uğur hekayələri öz əksini tapıb.

Sərgi bir ayadək davam edəcək.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4736
**Sifariş:** 1847
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.